# Müğənni xahiş edib

“Manaf Ağayev üzr videosunun çəkilməsini istəmədi”



**Xəbər verdiyimiz kimi, müğənni Manaf Ağayev barəsində 15 sutka həbs qərarı verilib.**

DİN Mətbuat Xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev ”BAKU.TV”də yayımlanan ”Üzbəüz” verilişində qonaq olarkən bildirib. O, vurğulayıb ki, M.Ağayev üzr videosunun çəkilməməsini xahiş edib:

”Manaf Ağayev bildirdi ki, bu, əməlindən peşmandır. Onu məhkəmədə də bildirdi. Video görüntülərin çəkilməsinə və sosial şəbəkələrdə yayılmasına maraqlı olmadı. Dedi ki, mənim səhvimi bütün cəmiyyət görüb.

(səh.5)

## Rusiya-Ukrayna böhranı müzakirə olunub

Türkiyə və Ukrayna prezidentləri telefonla danışıb



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Ukrayna Prezidenti Volodimir Zelenski arasında telefon danışığı olub.**

Bununla bağlı Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsi məlumat yayıb.

Məlumatda bildirilir ki, telefon söhbəti zamanı Rusiya-Ukrayna böhranı müzakirə olunub.


№ 34 (5556), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 23 fevral 2022-ci il (çərşənbə)




## Ali məktəblərə qəbul qaydaları dəyişdi

**Ali məktəblərə tələbə qəbulu qaydalarına dəyişiklik edilib.**

Bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Dəyişikliyə əsasən, Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları”na aşağıdakı məzmunda əlavə edilib: Abituriyentlər ali təhsil müəssisələrinə sənəd qəbulu zamanı III ixtisas qrupu üzrə elektron ərizə doldurarkən, öz istəklərinə uyğun olaraq ərizələrində təhsil almaq istədikləri ixtisas və ya ixtisaslara uyğun olan iki altqrupdan birini, yaxud hər iki altqrupu seçməlidirlər. III ixtisas qrupu üzrə dil-tarix (DT) altqrupuna daxil olan ixtisasların müsabiqəsi ilə yanaşı, tarix-coğrafiya (TC) altqrupuna daxil olan ixtisasların müsabiqəsində də iştirak etmək istəyən abituriyentlər əlavə olaraq coğrafiya fənnindən fərq imtahanı verməlidirlər.



## Azərbaycan və Rusiya bir-birinə qarşılıqlı hərbi yardım göstərə bilər

**Azərbaycan və Rusiya bir-birinə qarşılıqlı hərbi yardım göstərə bilər.**

Bu, ”Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə”də əksini tapıb.

Sənədə əsasən, təhlükəsizliyin təmin edilməsi, sülhün və sabitliyin qorunub-saxlanması məqsədilə Rusiya Federasiyası və Azərbaycan Respublikası bir-birinə BMT Nizamnaməsi, ayrı-ayrı beynəlxalq müqavilələr əsasında və Tərəflərdən hər birinin beynəlxalq-hüquqi öhdəliklərini nəzərə almaqla hərbi yardım göstərilməsi imkanını nəzərdən keçirə bilərlər.

Tərəflər Rusiya Federasiyasının və Azərbaycan Respublikasının silahlı qüvvələri arasında əməliyyat və döyüş hazırlığı üzrə birgə tədbirlərin keçirilməsi də daxil olmaqla qarşılıqlı əməkdaşlığı dərinləşdirəcək, eləcə də ikitərəfli hərbi əməkdaşlığın digər istiqamətlərini inkişaf etdirəcəklər.

Bildirilib ki, tərəflər silahlar və hərbi texnika üçün texniki xidmət, təmir, müasirləşdirmə üzrə xidmət mərkəzlərinin yaradılması, eləcə də hərbi təyinatlı məhsulların müxtəlif növlərinin birgə istehsalının təşkili üzrə səylərini fəallaşdırırlar.

## Parlament Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar Bəyanat qəbul edəcək



**Milli Məclis Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar Bəyanat qəbul edəcək.**

Parlamentin fevralın 25-də keçiriləcək iclasının gündəliyinə ”Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı haqqında” Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi daxil edilib.

# Prezidentlər 4 saat danışıqlar aparıb

## Azərbaycanla Rusiya arasında Müttəfiqlik Bəyannaməsi imzalanıb



**Dünən Azərbaycan prezidenti İlham Əliyevlə Rusiya prezidenti Vladimir Putin ”Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə”ni imzalayıblar.**

Bu barədə RİA Novosti məlumat yayıb.

”Fevralın 22-də Moskvada ”Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında” Bəyannamə imzalanıb. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzalayıblar”, - məlumatda deyilir.

Qeyd olunur ki, Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyev arasında danışıqlar 4 saatdan bir qədər çox davam edib.

(səh.2)


✓ **Ukraynanın Xarkov şəhərində erməni təxribatının qarşısı alınıb** (səh.2)

✓ **Regionun sabitliyi sülhdən keçir**
Deputatlarımız İrəvanda Bakının mövqeyini israrla qorudu (səh.3)

✓ **"Rusiya ilə imzalanan sənəd Şuşa bəyannaməsini əvəz edə bilməz"**
Turab Rzayev: ”Azərbaycan indiki halda mövcud geopolitik vəziyyətdə xarici risklərdən mümkün qədər sığortalanmaq üçün belə bir addım atır” (səh.4)

✓ **"Qatilin dindirilmə prosesində mütləq psixoloqlar iştirak etməlidir"**
“Bu, maddi ehtiyac içində olan insanlarla hansı istiqamətdə iş aparılmasına kömək edə bilər” (səh.6)


# Risklər böyükdür

## Ukraynada uzunmüddətli, yorucu müharibə başlayır

Rusiya Prezidenti Vladimir Putin Donetsk və Luqansk ”respublikaları”nın ”müstəqilliyi”ni tanımaq barədə fərman imzalayıb. Putin silahlı qüvvələrə ”dxr” və ”lxr”də sülhün qorunmasını təmin etməyi tapşırıb. Rusiya dövlət başçısı deyib ki, Donetsk və Luqanskın ”suverenliyinin” tanınması məsələləri dünyada, xüsusən də Avropada təhlükəsizliyin təmin edilməsinin qlobal problemləri ilə sıx bağlıdır.



(səh.4)

## Gürcüstan martın 1-dən sərhədlərini bütün ölkələr üçün açır

Hökumət koronavirusla əlaqədar tətbiq olunan daha bir neçə qadağanı da ləğv edib



**Gürcüstan hökuməti martın 1-dən etibarən sərhədlərini bütün ölkələr üçün açır.**

Bu barədə Gürcüstan hökumətinin Dövlət Qurumlararası Koordinasiya Şurası qərar qəbul edib.

Qərara əsasən, martın 1-dən etibarən xarici ölkə vətəndaşları Gürcüstana gələrkən ya iki doza ilə peyvənd olunmalarına dair sənədi, ya da son 72 saat ərzində verdikləri PCR testinin neqativ nəticəsini təqdim etməlidirlər.

Qeyd edək ki, Gürcüstan hökuməti koronavirus pandemiyası səbəbindən 67 ölkə üçün sərhədlərini bağlamışdı.

Hökumət koronavirusla əlaqədar tətbiq olunan daha bir neçə qadağanı da ləğv edib.

## Daha 2 372 nəfər koronavirusa yoluxub

19 nəfər ölüb, 616 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 2 372 yeni yoluxma faktı qeydə alınıb, 4 616 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 19 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 777 804 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 742 326 nəfər müalicə olunaraq sağalıb, 9 280 nəfər vəfat edib. 26 198 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 318, bu günə qədər isə ümumilikdə 6 501 358 test icra olunub.



## “Ermənistanın taktiki və strateji dərinliklərini məhv edə bilərik"

Hərbi analitik baş verəcək senarini “Şərq”ə sadalayıb

(səh.4)



## “Elə bilirlər ki, hakimiyyətlə dialoq quranlar alverçilərdir"

Tural Abbaslı: ”Parlamentə seçkilər keçirilsə, 6 dairədən də namizəd kimi çıxış edəcəyik”

(səh.5)

# Prezidentlər 4 saat danışıqlar aparıb

## Azərbaycanla Rusiya arasında Müttəfiqlik Bəyannaməsi imzalanıb



**Dünən Azərbaycan prezidenti İlham Əliyevlə Rusiya prezidenti Vladimir Putin "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"ni imzalayıblar.**

Bu barədə RİA Novosti məlumat yayıb.

"Fevralın 22-də Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə imzalanıb. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzalayıblar", - məlumatda deyilir.

Qeyd olunur ki, Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyev arasında danışıqlar 4 saatdan bir qədər çox davam edib.

Görüş Kremldə baş tutub. Onların müzakirə etdiyi mövzular arasında Ukrayna və Dağlıq Qarabağ məsələsi əsas yerləri tutub.

Liderlər mətbuat nümayəndələrinin iştirakı ilə aparılan danışıqlardan sonra "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannaməni imzalayıblar.

Bəyannamə Rusiya ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyətin ən vacib sahələrini əhatə edən 40-dan çox bənd var.

"Azərbaycanla Rusiya arasında müttəfiqlik haqqında Bəyannamənin 40-dan çox bəndi var".

Bunu Prezident İlham Əliyev fevralın 22-də Moskvada Rusiya Prezidenti Vladimir Putinlə təkbətək görüşündə deyib. Dövlət başçısı vurğulayıb ki, bütün bunlar ona dəlalət edir ki, iki ölkənin münasibətləri çox dinamik şəkildə inkişaf edir: "Biz daim əlaqə saxlayırıq, zəngləşirik. Əlbəttə, şəxsi görüşlərimiz həmişə xüsusi əhəmiyyət kəsb edir. Xüsusən ona görə ki, ölkələrimiz arasında ən mühüm sənədin imzalanması ərəfəsində. Rəmzi haldır ki, bu görüş ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi ərəfəsində keçir. Fikrimcə, bu sənəd ölkələrimiz, qarşılıqlı əlaqələrimiz, həmçinin regional təhlükəsizlik üçün birmənalı olaraq çox müsbət əhəmiyyət kəsb edəcəkdir. Biz ölkələrimiz arasında yaranmış dostluq, mehriban qonşuluq münasibətlərini çox yüksək qiymətləndirir, onları möhkəmləndiririk. Qarşılıqlı müttəfiqlik haqqında Bəyannamənin imzalanması son illərdə bizim necə fəal işlədiyimizi və qarşılıqlı əməkdaşlığın potensialını artırmağımızı çox yaxşı illüstrasiya edir. Bu, sadəcə sözlər, sadəcə niyyətlər deyil, həm də konkret işlər olub. Bəyannamə yetərincə genişdir. Bizim qarşılıqlı fəaliyyətimizin ən mühüm sahələrini əhatə edir və artıq dediyim kimi, bizim ikitərəfli münasibətlərin gələcəyi üçün çox böyük əhəmiyyət kəsb edəcək". Prezident İlham Əliyev bildirib ki, Azərbaycanla Rusiya arasında yaxşı ticarət dinamikası var: "Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi 3 milyard dolları ötüb. Dünya birliyi regionumuzda yaranmış yeni reallığı qəbul edib. Azərbaycan kimi, Ermənistanın da 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatın müddəalarını yerinə yetirəcəyinə ümid edirik".

### "Bəyannamə Azərbaycan-Rusiya qarşılıqlı fəaliyyətinin vacib sahələrini əhatə edir"

**Ölkə başçısı qeyd edib ki, Bəyannamə Azərbaycan-Rusiya qarşılıqlı fəaliyyətinin vacib sahələrini əhatə edir:** "Azərbaycanla Rusiya arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə bizim ölkələrimiz, qarşılıqlı fəaliyyətimiz və regional təhlükəsizlik üçün olduqca pozitiv əhəmiyyət kəsb edəcək. Azərbaycanla Rusiya arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə son illər bizim fəal işimizin, qarşılıqlı əməkdaşlıq potensialının yüksəldilməsinin çox yaxşı nümayişidir. Bəyannamə Azərbaycan-Rusiya qarşılıqlı fəaliyyətinin vacib sahələrini əhatə edir". Dövlət başçısı vurğulayıb ki, Rusiya Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında əsas rol oynayır: "Məhz Rusiyanın səyi nəticəsində proses hərbi fazadan siyasi-diplomatik mərhələyə keçib. Rusiya Azərbaycan və Ermənistan arasında normal qonşuluq münasibətlərinin yaranmasında əsas rol oynayır".

### "Azərbaycanda rus dilində tədris keçən 340-a yaxın məktəb var"

**Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycanda rus dilində tədris keçən 340-a yaxın məktəb var:** "Məktəblər məsələsinə gəldikdə, bir qədər dəqiqləşdirmək istərdim. Azərbaycanda təhsilin rus dilində olduğu 340-a yaxın məktəb var, bu məktəblərdə 140 mindən çox uşaq təhsil alır. Azərbaycanda 15 mindən çox vətəndaş ali məktəblərdə rus dili bölmələrində oxuyur. Mənim fikrimcə, bu, bizim münasibətlərimizin və gələcək əlaqələrimizin çox mühüm əsasıdır, ona görə ki, rus dili keçmiş Sovet İttifaqı ölkələrini həmişə birləşdirirdi və əlbəttə, rus dilini bilmədən gələcək nəsillərin əlaqələrini nizamlamaq çox çətin olar. Buna görə də, dediyim kimi, bu, həyatımızda çox mühüm amildir".

### "Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqələr çoxşaxəlidir"

**Rusiya Prezidenti Vladimir Putin də vurğulayıb ki, Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqələr çoxşaxəlidir, bu da iki ölkə arasında münasibətlərin daha da inkişafına zəmin yaradır. Putin Azərbaycanda rus dilinin inkişafına verilən dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edib:** "Bilirəm ki, Azərbaycanın 300 məktəbində rus dili aktiv öyrənilir, təbii ki, biz buna gələcəkdə də dəstək verəcəyik". Putin regional əlaqələrin də aktiv şəkildə inkişaf etdiyini qeyd edib. Rusiya rəhbəri Cənubi Qafqazda kommunikasiyaların bərpası ilə bağlı razılaşmanın olduğunu bildirib: "Prosesin sülh yolu ilə getməsi üçün hər şeyi edəcəyik. Artıq ticari-iqtisadi əlaqələrin inkişafı, nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı müəyyən razılaşma var. İstənilən halda təkcə orada yaşayan bütün insanların təhlükəsizliyinin təminatı baxımından deyil, həm də iqtisadi-ticarət əlaqələrinin inkişafı, nəqliyyat əlaqələrinin açılması baxımından da müəyyən razılaşmalar var. Bilirəm ki, mübahisəli məqamlar var, üzərində işləniləsi məsələlər var. Amma biz öz tərəfimizdən hər şeyi edəcəyik ki, bu proses sülh vasitəsilə, sülh yolu ilə inkişaf etsin. Və həmçinin, prosesə qoşulan bütün tərəflərin razı qalmasına çalışacağıq". Putin iki ölkə arasında münasibətlərdə yeni mərhələnin başlandığını bəyan edib: "Bu, tam aydındır ki, bizim münasibətlərimizin inkişafında yeni mərhələdir". Putin Prezident Əliyevin səfərinin Rusiya və Azərbaycan arasında diplomatik münasibətlərinin qurulmasının 30 illiyi ərəfəsində baş tutduğunu da söyləyib.

### "Rusiya keçmiş SSRİ respublikalarının suverenliyini dəstəkləyir"

**Rusiya rəhbəri vurğulayıb ki, Rusiya Federasiyası keçmiş SSRİ respublikalarının suverenliyini dəstəkləyir:** "Rusiyanın imperiya sərhədləri daxilində imperiyanı bərpa etməyə hazırlaşması mövzusunda spekulyasiyaları görürük və demək olar ki, əvvəldən görürdük. Bu, əsla həqiqətə uyğun deyil. Sovet İttifaqı dağılandan sonra Rusiya bütün yeni geosiyasi reallıqları etiraf etdi və sizin də bildiyiniz kimi, postsovet məkanında yaranmış bütün ölkələrlə, müstəqil dövlətlərlə bizim qarşılıqlı əlaqələrimizin möhkəmləndirilməsi üzərində fəal iş aparır. Hətta məsələn, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi kimi kəskin, çox kəskin vəziyyətlərdə də biz həmişə çox səliqəli hərəkət etmişik, bu prosesə cəlb edilmiş bütün dövlətlərin maraqlarını nəzərə almışıq və həmişə qarşılıqlı məqbul həllərə nail olmağa çalışmışıq".

**İsmayıl**

**Azərbaycanın təhsil naziri Emin Əmrullayevin Gürcüstana rəsmi səfəri davam edir.**

**Nazir Tbilisidəki Mirzə Fətəli Axundov adına 73 saylı azərbaycandilli məktəbi ziyarət edib.**

Direktor Salman Pirməmmədov bu il 120 yaşını qeyd edən təhsil müəssisəsinin tarixi barədə nazirə məlumat verib. O, hazırda məktəbdə 252 şagirdin təhsil aldığını bildirib.



# Tbilisinin 120 yaşlı azərbaycandilli məktəbi

## Azərbaycanın təhsil naziri təhsil ocağına baş çəkib

Direktor qeyd edib ki, məktəb Gürcüstanın ən nümunəvi orta təhsil müəssisələrindən biridir, məzunlarının əksəriyyəti ali məktəblərə qəbul olunur, gürcü dilinin tədrisi yüksək səviyyədədir.

S.Pirməmmədov qeyd edib ki, təhsil ocağının məzunları arasında akademiklər, həkimlər və professorlar var, hazırda məktəbdə çalışan müəllimlərin 50 faizi də bu məktəbi bitirib. O, özünün də artıq 38 ildir direktoru olduğu məktəbin məzunu olduğunu vurğulayıb. Direktor 2010-cu ildə məktəbin Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə təmir olunduğunu da diqqətə çatdırıb.

E.Əmrullayev Gürcüstanın təhsil nazirinin birinci müavini Tamar Maxaraşvili ilə birgə siniflərə, kitabxana və idman zalına baş çəkib, müəllim və şagirdlərlə söhbət edib.

Daha sonra məktəb rəhbərliyi və müəllim heyəti ilə görüş keçirilib, nazir təhsil ocağının qayğıları ilə maraqlanıb.

# "İrqçi çağırışlara dünya ictimaiyyəti biganə qalmamalıdır"

## Allahşükür Paşazadə: "Erməni kilsəsinin rəhbəri erməni cəmiyyətini müharibə, revanşizmə ruhlandırır"



**Biz Qarabağda mənəvi abidələrimizi dirçəldirik, məscidlərlə yanaşı kilsə və digər məbədləri yenidən qurur, bərpa edirik, erməni kilsəsi isə xristian dünyasının təəssübkeşliyini qazanmaq üçün qarayaxmalar yayır, Qarabağda guya kilsələrin dağıdılması barədə yalan, böhtanlar danışır, öz aqressiv münasibətini, qızışdırıcı fəaliyyətini davam etdirir.**

Trend-in məlumatına görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Xocalı soyqırımının ildönümü ilə bağlı keçirilən tədbirdə deyib.

A.Paşazadə bildirib ki, çox təəssüf ki, erməni kilsəsinin rəhbəri əlində İncil və xaç Xankəndinə gələrək ermənilərə nicat verəcək sülh ideyalarını təşviq etmək, dinc həyata, qarşılıqlı anlaşma və əməkdaşlığa sövq etmək əvəzinə yenidən müharibə, revanşizmə ruhlandırır.

"Din xadiminin yeni müharibələrə, nifrətə, işğalçılığa, separatçılığa səsləyən bəyanatlarına, irqçi çağırışlarına dünya ictimaiyyəti biganə qalmamalıdır", - deyə A.Paşazadə bildirib.

# Avropa İttifaqı Rusiyanın 351 deputatına sanksiya tətbiq edəcək

**Rusiya Prezidenti Vladimir Putinin Ukraynanın şərqindəki Luqansk və Donetsk vilayətlərində separatçıların elan etdiyi "Luqansk və Donetsk xalq respublikalarını" tanımasına etiraz olaraq Avropa İttifaqı Dövlət Dumasının 351 deputatına qarşı sanksiya tətbiqini müzakirə edəcək.**

"Report" xəbər verir ki, məlumatı "Deutsche Welle" yayıb.

Bildirilib ki, "respublikaların" tanınması ideyasını dəstəkləyən daha 11 nəfər barədə sanksiyanın tətbiqi müzakirə olunacaq.

*Qeyd edək ki, Avropa İttifaqı məlum məsələ ilə bağlı Rusiyaya qarşı sanksiyalar paketini müzakirə edəcək.*

*Xatırladaq ki, Rusiya Dövlət Dumasının 450 üzvü var.*

## Putin: "Minsk razılaşmaları artıq mövcud deyil"

**"Minsk razılaşmaları artıq mövcud deyil". APA "RİA Novosti"yə istinadən xəbər veri ki, bu sözləri Rusiya Prezidenti Vladimir Putin söyləyib.**

Vladimir Putin deyib ki, Rusiya "Donetsk Xalq Respublikası"nı və "Luqansk Xalq Respublikası"nın müstəqilliyini tanıyırsa nəyə görə Minsk razılaşmasını yerinə yetirmək lazımdır?

"Bəli, əlbəttə ki, indi Minsk razılaşmaları yoxdur, əgər biz bu xalqların müstəqilliyini tanıyırıqsa, niyə onları həyata keçirək", - deyə Putin jurnalistlərə bildirib.

## Vətəndaş vəfat etmiş ailə başçısına görə pensiya almaq hüququna malikdir



**Vətəndaş vəfat etmiş ailə başçısına görə pensiya almaq hüququna malikdir.**

Trend-in məlumatına görə, bunu Dövlət Sosial Müdafiə Fondunun Pensiya Təminatı Departamentinin müdiri Eyvaz İsmayılov deyib.

Onun sözlərinə görə, sözügedən pensiyanı almaq üçün bir sıra şərtlər mövcuddur.

"Məsələn onun həyat yoldaşı əmək qabiliyyətsiz olmalıdır ki, vəfat etmiş ailə üzvünə görə pensiya əldə etsin. Əmək qabiliyyəti olmaması dedikdə, əlillik dərəcəsi (1-ci və 2-ci qrup) və ya qanunvericilikdə göstərilən pensiya yaşına çatması nəzərdə tutulur. Əgər şəxs vəfat etdikdə onun ailə üzvlərinin hələ pensiya almaq hüququ olmasa, həmin kapital gələcəkdə ailə üzvlərinin hüquqlarının yaranması dövrünə qədər bütün indekslər nəzərə alınmaqla indeksləşdirilir", - deyə o qeyd edib.



# Ukraynanın Xarkov şəhərində erməni təxribatının qarşısı alınıb

**Ukraynanın Xarkov şəhərində erməni icmasının təxribatının qarşısı alınıb.**

Azərtac xəbər verir ki, Azərbaycanın Xarkovdakı Fəxri Konsulluğunun təşkilatçılığı ilə Xocalı soyqırımının 30 illiyi ilə bağlı tədbir keçirilib. Tədbirdə "Sonsuz dəhliz" filmi nümayiş olunub. Bundan öncə Xarkovun erməni icması şəhərin dövlət strukturlarına müraciət edərək filmin nümayiş etdirilməsinə qadağa qoyulmasını istəyib.

Bütün maneə və təxribatlara baxmayaraq Xarkovda Yaroslav Mudriy adına Milli Hüquq Universitetinin tələbələr zalında filmin təqdimatı keçirilib. Tədbirdə Azərbaycan diasporunun üzvləri, soydaşlarımız və Xarkov şəhər sakinləri iştirak ediblər.

Tədbirin təhlükəsizliyini Ukrayna Milli Polisi və Təhlükəsizlik Xidməti qoruyub.

Filmin təqdimatından öncə çıxış edən Azərbaycanın Xarkovdakı fəxri konsulu Əfqan Salmanov Xarkovda fəaliyyət göstərən diasporun bütün ictimai təşkilat sədrlərinə fəal ictimai mövqeyinə görə təşəkkür edib. O qeyd edib ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmış Azərbaycan xalqı tarixi torpaqlarından qovulub, qaçqın, məcburi köçkünə çevrilib və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunub.

"Azərbaycan dövlətçilik tarixinə Zəfər salnaməsi yazmış Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etmək qüdrəti nümayiş etdirdi. Azərbaycanda xalq-dövlət, ordu-xalq birliyi sayəsində tarixi Qələbə qazanıldı. Azərbaycan xalqı müdrik rəhbərinin siyasi iradəsi ilə bu gün azad Qarabağda erməni faşistləri tərəfindən dağıdılmış mədəni-mənəvi irsini yenidən dirçəldir, tarixi abidələrə və ziyarətgahlara yeni həyat verir, məscidlərimiz, habelə kilsə və sinaqoqlar yenidən qurulur, bərpa edilir, yandırılmış torpaqlarımıza yeni nəfəs verilir, abad kəndlər və şəhərlər salınır", - deyə Əfqan Salmanov əlavə edib.

# Avropa İttifaqından 2 milyard avro yardım gəlir

## Natiq Cəfərli: "Münasibətlər enişli-çıxışlı olsa da, son dövrlər əlaqələr intensiv mərhələyə qədəm qoyub"

**Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyi ölkə biznesinə 2 milyard avro həcmində maliyyə yardımı göstərəcək.**



Bunu Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko "Daha əlverişli KOB mühitinin yaradılması və rəqabət qabiliyyətinin artırılmasında Azərbaycan Hökumətinə dəstək" və "Azərbaycanın kənd yerlərində sahibkarlığın inkişafına dəstək" texniki yardım layihələrinin tamamlanmasına həsr olunan tədbirdə deyib. O bildirib ki, bu maliyyələşmə aləti 25 minədək sahibkarı əhatə edəcək: "Azərbaycan hökuməti kiçik və orta biznesin inkişafı sahəsində irəliləyişə nail olub. Biz Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə əməkdaşlıq edərək bu irəliləyişin şahidi olmuşuq. Biz Azərbaycanda KOB subyektlərinə maliyyə dəstəyini davam etdirəcəyik". Mixalko qeyd edib ki, Aİ-nin Azərbaycandakı nümayəndəliyi həm də sahibkarlığın mikrokreditləşməsinin təhlilini keçirib: "Bu işlər çərçivəsində biz Azərbaycan tərəfinə tövsiyələrimizi vermişik və Avropa təcrübəsinin daha çox inteqrasiyasını planlaşdırırıq". Onun sözlərinə görə, Aİ-nin Azərbaycandakı nümayəndəliyi və KOBİA sahibkarlığın rəqəmsallaşması və "yaşıl" texnologiyalara keçid üzrə layihələr reallaşdırır.

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə deyib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin köklü tarixi var. Ekspertin sözlərinə görə, münasibətlər zaman-zaman enişli-çıxışlı olsa da, son dövrlər əlaqələr intensiv mərhələyə qədəm qoyub:** "Azərbaycanın enerji təhlükəsizliyində oynadığı rol, ölkəmizin iqtisadiyyatı üçün ayrılan maliyyə yardımları Aİ ilə əlaqələrin genişlənməsinə imkan verəcək. Avropa Birliyi Azərbaycana maliyyə dəstəyi ilə yanaşı, həm də institusional dəstək verir. Yeni texnologiyaların ölkəmizə gətirilməsi, kənd təsərrüfatında çalışanlarla bağlı treninqlərin keçirilməsi, işçilərin müasir dövrə adaptasiyası da dəstəyin tərkib hissəsidir".

**İsmayıl Qocayev**

İsmayıl Qocayev

# Regionun sabitliyi sülhdən keçir

## Deputatlarımız İrəvanda Bakının mövqeyini israrla qorudu

**Dünən Ermənistanın paytaxtı İrəvanda ”Avronest” Parlament Assambleyasının komitə iclası keçirilib. İclasda Azərbaycanı iki deputat - Tahir Mirkişili və Soltan Məmmədov təmsil edib. Deputat Tahir Mirkişili deyib ki, Azərbaycan Prezidentinin irəli sürdüyü ”3+3” formatı davamlı sülh və gələcək iqtisadi əlaqələrin inkişafına töhfə verəcək. Onun sözlərinə görə, qlobal təhlükəsizliklə bağlı rəsmi Bakının 3 istiqaməti var:**

”Birinci istiqamət - hər birimiz öz ölkəmizdə sağlam təhlükəsizlik sistemi qurmalıyıq. İkinci istiqamət - bölgədə, qonşularla mehriban münasibətlər qurmaqdır, bir-birimizin ərazi bütövlüyünə hörmətlə yanaşmalıyıq. Üçüncü istiqamət - Cənubi Qafqazdakı ölkələr bir-birilərinin müxtəlif geosiyasi maraqlarını nəzərə alaraq, ortaq maraqlar çıxarmalıyıq. Bunun üçün ilk növbədə, mehriban münasibətlər qurmalıyıq”. T.Mirkişili deyib ki, region ölkələri ortaq maraqlarını müəyyənləşdirməlidir: ”Şərq Tərəfdaşlığı ölkələri arasında yalnız Azərbaycanın enerji resursları var və biz bunu öz qonşularımızla paylaşmağa, onların da bu imkanlardan istifadə etməsinə icazə verməyə hazırıq”. Azərbaycan parlamentinin deputatı Soltan Məmmədov da bildirib ki, Azərbaycanın malik olduğu multikultural dəyərlər ermənilərin reinteqrasiyası üçün ən yaxşı zəmanətdir: ”Azərbaycanın bu fəxr olunası tarixi erməni etnik azlığının Azərbaycanın bərabərhüquqlu vətəndaşı kimi reinteqrasiyası üçün ən yaxşı zəmanəti təqdim edir. Azərbaycan Ermənistanla bütün əlaqələrin bərpasının tərəfdarıdır. Bu, bizim regionumuza sülh və təhlükəsizlik, eyni zamanda, iqtisadi faydalar gətirəcək. Regionu Şimal və Cənub, Şərq və Qərb arasında körpüyə çevirəcək”. Deputat qeyd edib ki, 21-ci əsr bütün xalqlar və dövlətləri yeni çağırışlar qarşısında qoyub və indi hamının qarşılıqlı hörmət əsasında əməkdaşlığa ehtiyacı var: ”Biz hamımız Cənubi Qafqazı güclü region kimi, dostluq və inkişaf nümunəsi kimi görmək istəyirik. Bu gün bizim dünyaya təklif etdiyimiz regional layihələr təhlükəsizliyə və regionun inkişafına xidmət edir. Biz hamımız iqtisadi faydaları və mədəni dəyəri olan layihələrin lehinəyik. Münaqişə başa çatdıqdan sonra Azərbaycan Ermənistanla sərhədlərinin delimitasiya və demarkasiyasına hazır olduğunu elan etdi. Mən ermənistanlı həmkarlarımızın Ermənistanın sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı diplomatik müzakirələrə hazır olduğunu demələri kimi pozitiv mesajlar eşitdiyimə görə şadam”.



Azərbaycanın haqq səsi Ermənistanın paytaxtında da eşidildi

**Soltan Məmmədov ATƏT-in Minsk qrupunun gündəliyini dəyişərək regiona sülh gətirmək, xalqları bir araya gətirmək və iki ölkə arasında sülh razılaşması ilə bağlı danışmağa başlamalı olduğunun vacibliyini vurğulayıb:** ”Amma mən bir daha qeyd etmək istəyirəm ki, biz münaqişənin başa çatmasından məmnunuq. Məmnunuq ki, ölkələr arasında regiona sülh və firavanlıq gətirəcək kommunikasiyaların bərpası ilə bağlı müzakirələr davam edir”. O, Ermənistan nümayəndə heyətinin işğaldan azad edilmiş ərazilərdəki mədəni irs abidələri ilə bağlı ittihamlara cavabında qeyd edib ki, Azərbaycan bu sahədə beynəlxalq ictimaiyyətə 30 il çağırış edib: ”Biz beynəlxalq ictimaiyyəti monitorinqə və dəyərləndirmə aparmağa çağırdıq. Azərbaycan istənilən mədəni və dini abidənin mənsubiyyətindən asılı olmayaraq bərpasına, qorunmasına və istifadə edilməsinə sadiqdir. Azərbaycan etibarlı ölkə, etibarlı tərəfdaş kimi bütün beynəlxalq ictimaiyyətə multikulturalizmə, sülhə hörmət etdiyini sübut edib”. O, bu gün Azərbaycanda ermənilər də daxil olmaqla 52 etnik qrupun yaşadığını, amma Ermənistanda bir dənə də olsun azərbaycanlının qalmadığını vurğulayıb: ”Azərbaycanın multikultural ölkə statusu beynəlxalq ictimaiyyət tərəfindən tanınıb. Azərbaycanda 30 mindən çox erməni yaşayır. Amma Ermənistanda yaşayan bir azərbaycanlı belə yoxdur. Mədəni irs barəsində söz düşmüşkən, Qarabağda 67 məsciddən 64-ü sadəcə dağıdılmayıb, yer üzündən silinib. Bu, faktdır. Biz multikultural irslə bağlı hər hansı bir dəyişiklik etməyəcəyik. Biz 30 ildən çoxdur ki, UNESCO-nu bu ərazilərə gəlib dəyərləndirmə və monitorinq aparmağa, Azərbaycan mədəni irsinin vəziyyətini qiymətləndirməyə çağırırdıq. İndi beynəlxalq ictimaiyyətin müstəqil dəyərləndirmə aparmasını, reallığı beynəlxalq ictimaiyyətə çatdırmasını gözləyirik. Biz müharibə istəmirik və heç vaxt da istəməmişik. Ona görə də 30 il idi ki, bu problemin sülh yolu ilə həllini gözləyirdik”. Deputat Ermənistan tərəfini Azərbaycanla bağlı düzgün ifadələr seçməyə və təhqiredici ifadələrdən çəkinməyə çağırıb.

**Ermənistanın hakim ”Vətəndaş Müqaviləsi” partiyasından olan deputat Mariya Karapetyan vurğulayıb ki, regional kommunikasiyaların bərpası Ermənistan üçün prioritet məsələdir:** ”Ermənistanda hakim siyasi qüvvə daxili siyasətdə qanunun aliliyindən, xarici siyasətdə sülhün bərqərar olmasına üstünlük verir”. Onun sözlərinə görə, sonuncu prosesdə prioritet kommunikasiyaların bərpası, onların yenidən işə salınmasıdır. Bu təkcə yol infrastrukturuna deyil, həm də təhlükəsizliyə aiddir. Biz inanırıq ki, qarşılıqlı asılılıq mövcud problemləri daha effektiv həll etməyə kömək edəcək”. Erməni deputatın fikrincə, Ermənistan və Azərbaycanın silahlı qüvvələri qoşunların aynalı çıxarılması prinsipi ilə sərhədi tərk etməlidir. Onun fikrincə, bu, nəhayət, Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası və delimitasiyası prosesinin başlanmasına imkan verəcək.

Xatırladaq ki, Ermənistanda səfərdə olan deputatlarımız Baş nazir Nikol Paşinyanla da görüşüblər. Görüşdə Avropa Birliyi-Ermənistan, Azərbaycan-Ermənistan münasibətləri, Ukrayna ətrafında baş verən hadisələr müzakirə olunub. Həmçinin, Paşinyan Azərbaycanla dəmiryolunun çəkilməsi, Birinci Qarabağ savaşında itkin düşənlərin qalıqlarının verilməsi məsələsində razılığın əldə edilməsi və s. barədə açıqlamalar verib. Paşinyan Azərbaycanla münasibətlərdən danışarkən, çətin də olsa, müəyyən bir yolun qət edildiyini, bir çox məsələlər, xüsusilə də dəmir yolunun açılması ilə bağlı razılıqların olduğunu qeyd edib. Bunun regionda kommunikasiyaların açılması yönümündə əhəmiyyətli olacağını vurğulayıb.

**Millət vəkili Naqif Həmzəyev ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycan rəsmiləri torpaqlarımız işğal altında olduğu dövrdə də beynəlxalq təşkilatlar çərçivəsində İrəvana səfər ediblər. Deputat vurğulayıb ki, səfərlərə Milli Məclisin üzvləri də qatılıb:** ”Məqsədimiz işğal olunmuş torpaqlarımızın sülh yolu ilə azad edilməsinə nail olmaq idi. Əvvəlki səfərlərdə də Azərbaycanın haqq səsi İrəvanda səsləndirilir, ermənilərin haqq yoluna gəlməsi üçün cəhdlər edilirdi. 44 günlük Vətən müharibəsi ilə Azərbaycan işğala son qoydu və ərazi bütövlüyünü bərpa etdi. Ancaq yenə də humanizm nümayiş etdirdik. Dövlət başçısı cənab İlham Əliyev məğlub Ermənistana sülh təklif etdi. İmzalanmış üçtərəfli müqavilələrə görə Ermənistan tərəfi üzərinə öhdəliklər götürdü. Əlbəttə, İrəvan öhdəliklərə əməl etməlidir. Əks təqdirdə itirən tərəf Ermənistan olacaq. Milli Məclisin üzvlərinin Vətən müharibəsindən sonra ”Avronest” çərçivəsində İrəvana səfəri normal və düzgün addımdır. Bu onu göstərir ki, Azərbaycan əməldə də sülhə və danışıqlara hazırdır. Ermənistanda revanşist fikirlərlə yaşayanlara, bölgədə əmin-amanlığın olmasını istəməyən qüvvələrə nümayiş etdiririk ki, regionun sabitliyi sülhdən keçir. Ermənistanın uydurulmuş tarixə əsaslanaraq yeritdiyi təcavüzkar siyasət həm İrəvana, həm də region ölkələrinə mənfi təsir göstərir. O baxımdan Ermənistan Azərbaycan və Türkiyə ilə münasibətləri yaxşılaşdırmalıdır”.

**N.Həmzəyevin sözlərinə görə, deputatlarımızın İrəvandakı iclasda iştirakları, çıxışları, Azərbaycanın mövqeyini müdafiə etmələri, sadəcə Ermənistana deyil, Avropa rəsmilərinə də mesaj vermələri çox önəmlidir:** ”Biz qalib tərəfik, torpaqlarımızı işğaldan azad etmişik. Keçmişə qayıtmaq lazım deyil. Tariximizi unutmamaq şərti ilə qarşı tərəflə müəyyən təmaslara hazır olmalıyıq. Ermənistanın öhdəliklərinə əməl edəcəyi təqdirdə belə təmasların sayı arta bilər. Təbii ki, Azərbaycan hər zaman hərbi baxımdan güclü və hazır olmalıdır. Nə qədər güclü olsaq, bir o qədər söz sahibi olacağıq. O zaman Ermənistan tərəfi də rəsmi Bakının şərtlərini, diktəsini qəbul etmək məcburiyyətində qalacaq. Həmkarlarıma təşəkkür edirəm ki, İrəvanda Azərbaycanı layiqincə təmsil edirlər”.

# Paşinyan hazırda sülh müqaviləsinin bağlanmasını istəyir

## Amma bu, Azərbaycana sərf edirmi?



**Əhəd Məmmədli:** “Bütün Qarabağ ərazisi Azərbaycanın yurisdiksiyasına keçməyənə qədər Ermənistanla sülh müqaviləsinin imzalanması rəsmi Bakının maraqlarına cavab vermir”

**Rusiya Prezidenti Vladimir Putin ilə Ermənistan Baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub. Bu barədə Kremldən məlumat verilib. Məlumatda qeyd olunub ki, tərəflər Qarabağ ətrafındakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar:**

”Onlar Rusiya, Ermənistan və Azərbaycan liderlərinin 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli razılaşmalarının, o cümlədən Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin bərpası üzrə tədbirlərin, eləcə də Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası prosesinin mümkün qədər tez başlanmasına yönəlmiş addımların ardıcıl surətdə həyata keçirilməsinin vacibliyini vurğulayıblar”. Rusiya ilə Ermənistan arasında diplomatik münasibətlərin 30 illiyi ilə əlaqədar Putin Paşinyanı Rusiyaya rəsmi səfərə dəvət edib.

**AĞ Partiya sədrinin müavini, siyasi şərhçi Əhəd Məmmədli N.Paşinyanın Rusiyaya gözlənilən səfərindən ”Şərq”ə danışarkən bildirib ki, rəsmi Moskva Ermənistanla müttəfiq olsa da, onlar indi yaxın deyillər:**

”Ermənistan İkinci Qarabağ savaşından sonra daha da zəiflədi. İndi Paşinyan hər vəchlə Qərbə inteqrasiya etməyə çalışır. Putinsə ona inanmır. Onların münasibətləri bir az da buna görə soyuqlaşıb. Rusiya və Ermənistan arasında diplomatik münasibətlərin otuz illiyinə görə Nikolun Rusiyaya dəvət olunması protokol qaydalara uyğun olaraq həyata keçirilən bir işdir”.

**Siyasi şərhçi Paşinyanın Rusiya səfərinin Ermənistan-Azərbaycan münasibətlərinə göstərə biləcək mümkün təsirinə diqqət çəkib:**

”Nikol sərhədin delimitasiyası prosesinin tezləşməsini, eləcə də Azərbaycanla diplomatik münasibətlərin qurulmasını, yekun sülh müqaviləsinin imzalanmasını istəyər. Amma bu, Azərbaycana sərf edirmi? Bütün Qarabağ ərazisi Azərbaycanın yurisdiksiyasına keçməyənə qədər Ermənistanla sülh müqaviləsinin imzalanması rəsmi Bakının maraqlarına cavab vermir. Yekun sülh Azərbaycanın Xankəndi və ətrafı, eləcə də Laçın yolunu nəzarətə götürüb öz yurisdiksiyasını orda bərpa etdikdən sonra bağlana bilər. Fikrimcə, Paşinyanın Rusiya səfərindən sonra da bununla bağlı rəsmi Bakının hazırkı mövqeyində hansısa dəyişiklik olmayacaq” .

**Günəş Mərd**

**Prezident İlham Əliyev Nərimanov, Nizami, Kürdəmir rayonlarına yeni icra hakimiyyəti başçıları təyin edərkən dövlət məmurlarına bir daha ciddi xəbərdarlıq etdi.**



# Özlərini "kiçik padşah" kimi aparırlar

## Bu gün bir sıra rayonlarda icra hakimiyyətlərindən narazılıqlar var

Dövlət başçısı hamının qanun qarşısında bərabər olduğunu bildirdi. Məmurları qanunazidd əməllərdən uzaq olmağa, vətəndaşlara diqqət və qayğı ilə yanaşmağa çağırdı. Prezident dəfələrlə yeni vəzifə təyinatları zamanı dövlət məmurlarına ciddi xəbərdarlıqlar edib. Ancaq təəssüf olsun ki, bəzi məmurlar bu xəbərdarlıqlardan nəticə çıxarmırlar və əvvəlki əməllərinə davam edirlər.

**Millət vəkili Ceyhun Məmmədov ”Şərq”ə deyib ki, bu gün bir sıra rayonlarda icra hakimiyyətlərindən narazılıqlar var. Deputatın sözlərinə görə, hələ də bəzi icra başçıları vətəndaşlarla münasibəti düzgün qurmur, kabinetdən çıxmır, özlərini ”kiçik padşah” kimi aparırlar:** ”Bu da cəmiyyətdə haqlı olaraq narazılıq yaradır. Bütün icra hakimiyyəti başçıları öz vəzifələrini məsuliyyət və vicdanla yerinə yetirsələr, zaman-zaman bir sıra icra hakimiyyətləri qarşısında vətəndaşlar özlərini yandırmaz və ya mitinq keçirməzdilər. Prezident İlham Əliyevin hər zaman qeyd etdiyi kimi, ”vəzifə imtiyaz və ya üstünlük deyil, yüksək etimad və məsuliyyətdir”. Yüksək etimad göstərilən hər bir dövlət məmuru məsuliyyətini dərk etməli, xalqın qulluqçusu olmalı, xəyanət etməməlidir. Vəzifəsindən irəli gələn öhdəlikləri vicdanla və ləyaqətlə yerinə yetirməli, vətəndaşlarla münasibəti düzgün qurmalıdır. Onlarla daimi əlaqədə olmalı, problemlərinə həssas, yüksək diqqət və qayğı ilə yanaşmalıdır”. C.Məmmədov qeyd edib ki, Vətən müharibəsində şanlı qələbəmizdən sonra bölgədə yeni siyasi və iqtisadi reallıq yaranıb: ”Dövlətimiz yeni mərhələyə qədəm qoyub. Qarşıda bizi böyük quruculuq işləri gözləyir. Dövlətçiliyimizi, müstəqilliyimizi, qələbəmizi daha da gücləndirməliyik. Hazırda ölkəmizdə kadr islahatları sürətlə və uğurla həyata keçirilir. Son aylar bir çox sahələrə yeni gənc kadrlar təyin olunub. Kadr təyinatında bilik və bacarıqlara xüsusi önəm verilir. Bütün bu addımlar ölkəmizin inkişaf və tərəqqisinə öz ciddi töhfəsini verəcək”.

**İsmayıl Qocayev**

# Rubl kəskin ucuzlaşa bilər

## İndi hər şey Qərbin qəbul etdiyi qərardan asılı olacaq





**Kreml rəhbərinin son qərarı qlobal iqtisadiyyata da təsirsiz ötüşməyib. Şərqi Avropada yarana biləcək daha böyük miqyaslı gərginlikdən təsirlənən birjalarda strateji məhsulların qiymətində artımlar müşahidə edilib.**

Ötən həftəni 1 bareli 91dollar ilə qapayan ”Brent” markalı neft indi 97 dollara təklif edilir. Neft 7 faizə yaxın bahalaşıb. Rusiya rublu da təzyiq altındadır. Dünən hərraclarda dollara nisbətən 76.70 məzənnəsi dəyişdirilən Rusiya pulu 80-ədək ucuzlaşıb. Bu, bir gündə rublun 4 faizə yaxın ucuzlaşması anlamına gəlir. Avro dollara nisbətən cüzi ucuzlaşıb. Avropa pulu son gün 1 faizə yaxın dəyər itirib. Avropanın Şərqində baş verənlər hələlik avrozonaya xüsusi təsir etməyib.

**Millət vəkili, iqtisadçı Vüqar Bayramov bildirib ki, istər neft, istərsə də valyuta, xüsusən də rublun məzənnəsi birbaşa Qərbin qəbul etdiyi qərarlardan asılı olacaq.** Deputatın sözlərinə görə, Ağ Evdə, eləcə də Brüsseldə Rusiyaya qarşı sanksiyalarla bağlı açıqlamalar verilsə də, hələlik hansı addımların atılacağı dəqiqləşdirilməyib: ”Bir müddət öncə də Vaşinqtonda Moskvaya qarşı SWIFT-dən çıxarılma kimi sərt sanksiyalarla bağlı bəyanatlar verilmişdi. Lakin sonradan okeanın o tayında diplomatik addımlara üstünlük verildi. Bununla belə, əgər Qərb Rusiyaya qarşı əvvəllər bəyan etdiyi sanksiyaları tətbiq edərsə, o halda ”Brent” markalı neftin qiyməti qısa zamanda 100 dollarlıq psixoloji həddi keçə və rubl kəskin ucuzlaşa bilər. Bu baxımdan, indi bütün gözlər Vaşinqtondadır”.

**İsmayıl**



# Kremlin qərarı çox pis nümunədir

## Sərdar Cəlaloğlu: ”Elə Rusiyanın öz ərazisində onlarla belə muxtariyyət var”

**Türkiyə Xarici İşlər Nazirliyi Donetsk və Luqanskın ”müstəqilliyi”nin Rusiya tərəfindən tanınması ilə bağlı bəyanat yayıb. Bəyanatda rəsmi Moskvanın bu addımının Minsk razılaşmalarını və Ukraynanın ərazi bütövlüyünü pozan sənəd olduğu qeyd olunub: ”Türkiyə tərəfləri beynəlxalq hüquqa riayət etməyə çağırır”.**

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu ”Şərq”ə açıqlamasında Türkiyənin bəyanatının kifayət qədər yerində olduğunu bildirib:**

”Təkcə rəsmi Ankara deyil, eyni zamanda Avropa İttifaqı, İtaliya, Polşa, İsveç də Rusiyanın bu addımını pislədi. Ümumiyyətlə, Rusiya Donetsk və Luqanskın ”müstəqilliyi”ni tanımaqla dünyada separatizm hərəkatına təkan verdi. Bu gün dünyada yüzə yaxın ölkə var ki, onların ərazisində separatçı hərəkatlar var. Rəsmi Moskvanın bu açıqlaması onlar üçün sanki qol-qanad oldu. Elə Rusiyanın öz ərazisində onlarla belə muxtariyyət var. Hazırda onlar da tanınsa, Rusiya parçalanar”.

**S.Cəlaloğlu rəsmi Moskvanın bu addımının bütövlükdə beynəlxalq hüquqa zidd olduğunu vurğulayıb:**

”Beynəlxalq hüquqa görə strukturlar hansı dövlətin ərazisindədirsə əvvəlcə həmin dövlətin özü, daha sonra başqa ölkələr onu tanımalıdır. Digər tərəfdən bu, başqa ölkənin daxili işlərinə qarışmaqdır. Ukrayna daxilindəki bu strukturlardan da hansınınsa Rusiyanı tərəf-müqabili kimi seçmək hüququ yoxdur”.

**Partiya sədrinin fikrincə, Rusiya indi açıq-aşkar Ukraynanın seçdiyi hərbi postda onu dayandırmaq, ondan siyasi-hərbi təzminat almaq üçün addımlar atır:**

”Bunun müqabilində Qərb təbii ki, sakit durmayacaq və Rusiyaya qarşı çox ciddi sanksiyalar tətbiq edəcək”.

**Günəş Mərd**

# Risklər böyükdür

## Ukraynada uzunmüddətli, yorucu müharibə başlayır




## Ukrayna ABŞ-Rusiya qarşıdurmasının poliqonuna çevrilir

İsmayıl Qocayev

**Rusiya Prezidenti Vladimir Putin Donetsk və Luqansk ”respublikaları”nın ”müstəqilliyi”ni tanımaq barədə fərman imzalayıb. Putin silahlı qüvvələrə ”dxr” və ”lxr”də sülhün qorunmasını təmin etməyi tapşırıb. Rusiya dövlət başçısı deyib ki, Donetsk və Luqanskın ”suverenliyinin” tanınması məsələləri dünyada, xüsusən də Avropada təhlükəsizliyin təmin edilməsinin qlobal problemləri ilə sıx bağlıdır.**

Putin qeyd edib ki, Ukraynanın Rusiya ilə qarşıdurmada alət kimi istifadə edilməsi ölkəsi üçün çox böyük təhlükədir. Putinin ”LNR”, ”DNR”-in ”müstəqilliyini” tanımasından dərhal sonra Rusiya Duması sənədi ratifikasiya edib. Ermənilər bu qərarı sevinclə qarşılayıblar. Ermənistan parlamentini ”Avronest”də təmsil edən ”Hayastan” blokunun nümayəndəsi Artur Xaçatryan İrəvanı da qondarma rejimlərin ”müstəqilliyini” tanımağa çağırıb.

**Zelenski də xalqa müraciət etdi**

**Putinin qərarından sonra Prezident Vladimir Zelenski xalqa müraciət edib. O deyib ki, Rusiyanın hərəkətlərinə baxmayaraq, Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri eyni qalacaq:** ”Özlərinin müstəqilliyini elan edən ”respublikalar”ın tanınması Rusiya Federasiyasının Minsk sazişindən çıxması deməkdir”. Zelenski qeyd edib ki, Ukrayna ”Normand dördlüyü”nün Fövqəladə Zirvə Toplantısı təşəbbüsü ilə çıxış edib: ”Rəsmi Kiyev ATƏT-in Xüsusi Monitorinq Missiyasının tam formatda fəaliyyətində təkid edir”. Onun sözlərinə görə, Kiyev siyasi-diplomatik nizamlanmaya sadiqdir və təxribatlara tabe olmayacaq: ”Ukrayna heç kimə heç nə verməyəcək”. Ukrayna Xarici İşlər Nazirliyi Rusiyadakı müvəqqəti işlər vəkili Vasili Pokotilonu məsləhətləşmə üçün geri çağırıb. Zelenski ona XİN-dən Rusiya ilə diplomatik münasibətlərin kəsilməsinə dair sorğunun göndərildiyini bildirib. Dövlət başçısı sorğunu nəzərdən keçirəcəyini söyləyib.

**“Rusiyanın qərarı qəbuledilməzdir”**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Kreml rəhbərinin addımını doğru saymayıb:** ”Rusiyanın bu qərarını qəbuledilməz sayırıq. Tərəfləri sağlam düşüncə və beynəlxalq hüquqa riayət etməyə çağırırıq. Biz eyni zamanda Qara dəniz ölkəsiyik. Qara dəniz ölkəsi olduğumuza görə bir çox tədbirlər paketi hazırlanmalıdır. Qara dəniz ölkəsi olmanın bizə verdiyi məsuliyyəti bir kənara qoya bilmərik. Bu anlayışla yolumuza davam edəcəyik”.

**Fransadan Donbass açıqlaması: Vəziyyət çox ağırdır**

**Fransa Xarici işlər naziri Jan-İv Lö Drian deyib ki, Rusiya ”dxr” və ”lxr”i tanımaqla Minsk razılaşmaları ilə bağlı beynəlxalq öhdəliklərindən imtina etdi:** ”Söhbət beynəlxalq hüququn pozulmasından, Ukraynanın suverenliyinə və bütövlüyünə qəsd cəhdindən gedir; söhbət Rusiyanın beynəlxalq öhdəliklərindən və Minsk razılaşmaları üzrə öhdəliklərdən imtina etməsindən gedir. Vəziyyət çox ağırdır”.

**“Aİ Ukraynada separatçı ərazilərin tanınmasına qətiyyətlə reaksiya verəcək”**

**Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel bildirib ki, Aİ Ukraynada separatçı ərazilərin tanınmasına qətiyyətlə reaksiya verəcək:** ”Ukraynada iki separatçı ərazinin tanınması beynəlxalq hüququn, Ukraynanın ərazi bütövlüyünün və Minsk razılaşmalarının kobud şəkildə pozulmasıdır. Aİ və onun tərəfdaşları buna birlik, möhkəmlik və həmrəyliklə cavab verəcək. Prosesləri çox yaxından izləyirik. Ukraynadakı durumun tənzimlənməsinə dəstək verməyə tam hazırıq”. Şarl Mişel həmçinin Minsk razılaşmalarını dəstəklədiyini söyləyib.

**Böyük Britaniyanın Baş naziri Boris Conson Rusiyanın Ukraynaya genişmiqyaslı müdaxilə etməyi və Kiyevi ələ keçirməyi planlaşdırdığı iddiası ilə çıxış edib:** ”Qorxuram, Prezident Putin əslində Ukraynaya genişmiqyaslı müdaxilə etməyə, sərhəddi keçməyə, müstəqil və suveren Avropa ölkəsini ələ keçirməyə köklənib. Düşünürəm ki, bunun tamamilə bir faciə olacağına heç kimin şübhəsi olmamalıdır. Əgər Vladimir Putin zorakılıq, işğalçılıq, genişmiqyaslı hücum yolu seçərsə, Kiyevin mühasirəyə alınmaması, Ukrayna paytaxtının ələ keçirilməməsi, onun bu səylərinin uğurlu başa çatmaması və uğursuzluğa düçar olması bizim üçün xüsusi önəm daşıyır”. Conson Rusiyaya qarşı sanksiyalar paketinin tətbiq ediləcəyini söyləyib.

**“Qərbin rəsmi cavabı sanksiyaların tətbiqi ilə məhdudlaşır”**

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə deyib ki, Ukrayna ABŞ-Rusiya qarşıdurmasının poliqonuna çevrilir. Onun sözlərinə görə, Rusiya Prezidenti V.Putinin separatçıları tanımasından sonra bu risk daha da aktuallaşdı:** ”Qərbin rəsmi cavabı sanksiyaların tətbiqi ilə məhdudlaşır. ABŞ Prezidenti Co Bayden hələki təkcə separatçı bölgələrlə ticarəti qadağan edən qərar qəbul edib. Geniş sanksiya paketinin açıqlanacağı gözlənilir. BMT Təhlükəsizlik Şurasının iclası Rusiyanın veto hüququna görə heç bir nəticə vermədi. İlk praktiki cavab Almaniyadan gəldi. Kansler Şolz bildirib ki, ”Şimal axını-2” layihəsinə lisenziya verilməsi artıq imkansızdır. Almanların qərarından iki nəticə çıxır. Birincisi, ABŞ Avropanı anti-Rusiya cəbhəsində birləşdirdi və Putinin tanıma qərarı bu məsələdə Vaşinqtonun əlinə oynadı. İkincisi, Rusiya qazını Avropaya daşımaq üçün Ukrayna tranzitindən böyük ölçüdə asılılığı davam edəcək. Şolzun qərarı Rusiyanı Ukraynadan asılı vəziyyətə salmaq, Putinə təzyiq məqsədi daşıyır. ABŞ isə bununla iki hədəfə nail olur: Qərb blokunu öz çətiri altında formalaşdırır; Avropa qaz bazarında payını artırır və rusları sıradan çıxarmaq imkanı qazanır. Hərçənd, Avropanın qaz tədarükündə rus qazından imtina etmək perspektivi hələki azdır. Bununla yanaşı, Rusiya Avropa qaz bazarını itirmək niyyətində deyil. Moskva buna qarşı mümkün gedişlər edəcək. Cari dövrdə qaz tədarükünü azaltmaqla Avropanı sıxa bilər: bununla ”Şimal axını-2” layihəsinin açılmasına nail olmağa çalışacaq. Uzunmüddətli perspektivdə Ukrayna tranzitinin təhlükəsizliyini təmin etmək üçün bu ölkəyə nəzarəti bərpa etmək istiqamətində hərəkət edəcək. Məhz bu amil Ukraynanın poliqon olmaq riskini daha da artırır. ABŞ rəsmi Kiyevi, Rusiya separatçıları dəstəkləyir və baş verənlər göstərir ki, Ukraynada uzunmüddətli, yorucu müharibə başlayır. Ukrayna hər iki tərəf üçün həm də bufer zona rolunu oynayacaq. ABŞ Rusiya ilə burada döyüşərək, Şərqi Avropa cəbhəsini gücləndirəcək. Rusiya NATO-nun genişlənməsinin qarşısını Ukraynada alacaq; Zelenskinin Münhendəki çıxışı bu kontekstdə təsadüfi deyildi”.

---

**“Mən demək olar bütün məlumatları mediadan oxuyuram. Biz medianın peşəkarlığına üstünlük veririk”.**



Bunu Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev deyib.

Prezident İlham Əliyevin də medianın nəzarətini yüksək qiymətləndirdiyini qeyd edən Baş prokuror Kamran Əliyev Azərbaycan prokurorluğunun fəaliyyətinin mətbuat orqanlarında müsbət qiymətləndirilməsinə çalışdığını bildirib. Baş prokuror, həmçinin jurnalistlərə müraciət edərək onları sensasiya yaratmaq xatirinə məlumat yaymaqdan çəkinməyə çağırıb: ”Bəzən jurnalistikanın adından istifadə edib, reketlik edənlər var. Həmin şəxslər prokurorluğa çağırılaraq müvafiq tədbirlər görülür. Mediada insanların şərəf, ləyaqətini alçaltmağa yönələn, sensasiya yaratmağa meyilli məlumatlar olmamalıdır”.

# Baş prokurorun jurnalistlərə müraciəti məqsədəuyğundur

## Təkcə mediada deyil, həm də sosial şəbəkələrdə əsaslandırılmamış məlumatların yer alması yolverilməzdir

**Baş prokurorun jurnalistlərə müraciətinə münasibət bildirən ”Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli ”Şərq”ə açıqlamasında qeyd etdi ki, bu, mövcud qanunvericiliyə əsasən səsləndirilən fikirdir.**

”Ölkənin Baş prokurorunun fəaliyyət istiqamətlərindən biri də qanunların aliliyinin təmin olunmasının keşiyində durmaqdır. Bu baxımdan Baş prokurorun çağırışı təbii qəbul olunmalıdır.

Təkcə mediada deyil, həm də sosial şəbəkələrdə əsaslandırılmamış məlumatların yer alması yolverilməzdir. Çünki hər hansı yanlış informasiyanın doğurduğu neqativ təzahürlərin aradan qaldırılması üçün çox vaxt sərf olunur. İnsanlar həm də maliyyə itkisinə məruz qalır və ciddi problemlərlə qarşılaşırlar.

Buna görə də mediadan bu məsələlərdə çox məsuliyyətli davranmaq tələb olunur. Əslində, burada xüsusi tələb və istək də yoxdur. Media sektorunda qanunların yaratdığı çərçivə istənilən şəxsin fəaliyyəti üçün eynidir. Ən azından mahiyyət etibarilə sərhədlərinin hara qədər olduğunu bilirsən. Öz söz azadlığına görə, başqalarının hüquqlarını poza bilməzsən. Bu səbəbdən çağırış tamamilə məqsədəuyğundur”.

**Sənan İsmayıl**

---

# "Rusiya ilə imzalanan sənəd Şuşa bəyannaməsini əvəz edə bilməz"

## Turab Rzayev: ”Azərbaycan indiki halda mövcud geopolitik vəziyyətdə xarici risklərdən mümkün qədər sığortalanmaq üçün belə bir addım atır”



**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 22-də Rusiya dövlətinin başçısı ilə təkbətək görüşü keçirilib.**

Qeyd edək ki, Prezident İlham Əliyev Rusiya dövlət başçısı Vladimir Putinin dəvəti ilə fevralın 21-də Rusiyaya rəsmi səfərə gedib. Kremldən verilən məlumata görə, səfər çərçivəsində tərəflər arasında qarşılıqlı müttəfiqlik haqqında bəyannamə imzalayacaqlar.

**Siyasi şərhçi Turab Rzayev liderlər tərəfindən imzalanacaq müttəfiqlik bəyannaməsindən ”Şərq”ə danışarkən bildirib ki, Azərbaycan indiki halda mövcud geopolitik vəziyyətdə xarici risklərdən mümkün qədər sığortalanmaq üçün belə bir addım atır:**

”İndi gözümüzün önündə dünyanın Ukraynanın taleyinə hələki biganə qalması durur. Belə bir vaxtda ölkə rəhbərliyi də bizə qarşı ola biləcək təhlükəni bu şəkildə azalda biləcəyini düşünmüş ola bilər”.

Analitikin fikrincə, istənilən halda Rusiya ilə imzalanan hansısa bir bəyanatın Azərbaycanla Türkiyə arasında imzalanan Şuşa bəyannaməsini əvəz edə bilməz: ”Rusiya ilə hansı bəyanatı imzalamağımızdan asılı olmayaraq heç vaxt onunla münasibətlərimiz Türkiyə ilə olduğu kimi olmayacaq. Rəsmi Bakının bölgənin gələcəkdə inşa olunmasındakı müttəfiqləri məhz Türkiyə və Pakistandır. Rusiya əgər bu bölgədə rol oynamaq istəyəcəksə, o zaman bu ittifaqın dördüncü ayağını əmələ gətirərək, üçlüklə birlikdə masada oturacaq”.

**T.Rzayevin qənaətincə, Azərbaycanın Rusiya ilə ayrıca ittifaq şəklində hansısa bir strateji gələcəyi ola bilməz:** ”Bu baxımdan da tərəflər arasında imzalanacaq bəyannaməni müqavilə ilə eyniləşdirmək olmaz. Bu, ümumi fikirləri ifadə edən bir sənəddir”.

**Günəş Mərd**

---

# Millət vəkillərimiz İrəvanda ciddi mesajlar verib

## Asim Mollazadə: “Biz sülh, əməkdaşlıq və tərəfdaşlıq istəyirik”



**Bu gün Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili İrəvanda AVRONEST Parlament Assambleyasının komitə iclasında geopolitik təhlükəsizliklə bağlı çıxış edib.**

T.Mirkişili bildirib ki, region ölkələri arasında yaxşı əlaqələr qurulmalıdır. Bunun üçün də Cənubi Qafqazda qonşu ölkələr bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşmalıdırlar.

Qeyd edək ki, Azərbaycan Milli Məclisinin iki deputatı Tahir Mirkişili və Soltan Məmmədov AVRONEST PA çərçivəsində iclasda iştirak etmək üçün İrəvanda səfərdədirlər. Erməni sakinlər Azərbaycan rəsmilərinin ziyarətinə etiraz ediblər. İrəvan polisi etirazlara müdaxilə edib.

**“Şərq”ə açıqlama verən millət vəkili, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə Ermənistana verdiyimiz fürsəti izah edib:** ”BMT-nin və ATƏT-in təməl sənədlərinə uyğun olaraq hər bir ölkə digər dövlətlərin ərazi bütövlüyünü tanımalıdır. Əksi olsa, bu, beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasıdır. Deputatımız Azərbaycanın hər zaman hüquqi qaydalara əsaslandığını ifadə edib. Azərbaycanın mövqeyi birmənalıdır. Biz sülh istəyirik. Əməkdaşlıq və tərəfdaşlıq istəyirik. Bu, Ermənistan üçün bir şansdır. Nəticədə rəsmi İrəvan sülh istiqamətində zəruri addımları ataraq öz mövcudluğunu qoruya bilər”.

**Millət vəkili deputatlarımızın İrəvanda qarşılaşdığı etirazlardan bəhs edib:**

”Qarabağ klanı”nın hərbi cinayətkarların təmsilçiləri etiraz etmək istəyirdilər. Amma onlar 44 günlük Vətən müharibəsindəki məğlubiyyətdən sonra seçkilərdə ermənilərin dəstəyinə malik deyillər. Hərbi cinayətkarlar, Koçaryan və Sarkisyan Qarabağ mafiyasının nümayəndələridir. Onlar artıq beynəlxalq səviyyədə məsuliyyətə cəlb olunmalıdır”.

**Cəmilə Əzim**

---



# “Ermənistanın taktiki və strateji dərinliklərini məhv edə bilərik"

## Hərbi analitik baş verəcək senarini “Şərq”ə sadalayıb

**Ermənilərin təxribatları davam edir. Ötən gün Azərbaycan Ordusunun Xocalı rayonunun Şuşakənd kəndi istiqamətində yerləşən mövqeləri və Xocavənd rayonunun Tağaverd kəndi istiqamətində yerləşən Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən heç bir səbəb olmadan atıcı silahlardan atəşə tutulub.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən cavab tədbirləri ilə qarşı tərəf susdurulub.

**Separatçıların mütəmadi olaraq davam edən təxribatlarını ”Şərq”ə şərh edən siyasi şərhçi Aqşin Kərimov hesab edir ki, belə bir vəziyyətdə Azərbaycan Ordusu Ermənistana növbəti cəhənnəm yaşada bilər:**

”Qabığı və içərisi çürük qoza bənzəyən Ermənistan 10 noyabr bəyanatının müddəalarının, əsasən də sənədin 4-cü bəndinin icrasını dalana dirəməyə çalışsa da, bu səylər hədər gedir. Azərbaycan tədricən strateji hədəflərinə nail olur, hətta bəzisinə lazım olduğundan da tez. İrəvan isə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qorxudan dili topuq çalan, küncə sıxılmış siçan kimi dişini qıcayan separatçılar barədə tədbir görməkdən boyun qaçırır. Bunun səbəblərini xatırlatmaq vacib deyil, nəticə budur ki, ya zəlzələdən, ya vəlvələdən Ermənistan öhdəliyini yerinə yetirmir”.

Ekspertin fikrincə, İrəvanın qətiyyətli həyasızlığının bədəli Ermənistanın gələcək taleyi barədə heç də xoş olmayan proqnozlar səsləndirməyə əsaslar verir:

”Azərbaycan torpaqlarını işğalda saxladığı müddətdə özü haqqında mifik rəy yaradan Ermənistanın bu yalanının üstü çoxdan açılmışdı. Amma İrəvan ifşa olunan məkrli niyyətlərinin üzərini pərdə ilə örtürdü, Azərbaycan isə 44 günlük Vətən müharibəsi ilə həmin pərdəni də aradan götürdü. Qarabağ məsələsi illər boyu erməni xalqının boynundan asılan dəyirman daşı olub, 44 günlük müharibənin nəticəsi isə Ermənistan üçün növbəti faciəvi faza yaratdı. Ermənistanın beynəlxalq dayaqları sarsıldı, İrəvanın vassala çevrilməsi prosesində yeni mərhələ başlandı. Azərbaycan yeni reallıqda da ətalətdə qalmadı, sərhədə çıxışını təmin etdi, hərbi gücünü yeni geosiyasi şərtlərə uyğunlaşdırdı, Türkiyə ilə strateji müttəfiqlik əlaqələrini möhkəmləndirdi. Ermənistanın darmadağın edilmiş ordusundakı dağınıq psixoloji durum, isterika hökm sürməkdədir, bu gün Ermənistanda çağırışçı problemi də yaşanır. Gənclər yeni müharibə ehtimalından qorxaraq ölkəni tərk edir, demoqrafik böhran dərinləşir, nəticədə iqtisadi tabloda da qara rənglər tüğyan edir”.

**A. Kərimovun qənaətincə, Ermənistan başı üzərində qatılaşan qara buludların çəkilməsini istəyirsə, öhdəliklərinə əməl etməlidir:**

”Necə ki, Zəngəzur dəhlizinin açılması istiqamətində son zamanlar müsbət siqnallar verir və praktiki işlərə başladığını elan edir. İrəvan bu cür yanaşmanı 10 noyabr, 11 yanvar və 26 noyabr üçtərəfli bəyanatlarında təsbit olunan bütün müddəalara münasibətdə də sərgiləmək məcburiyyətindədir. Əks təqdirdə, Azərbaycan özünün hərbi potensialını nümayiş etdirəcək”.

**Analitik hərbi senari üzrə baş tuta biləcək əməliyyatları sadalayıb:** ”Birincisi, Qarabağda və Şərqi Zəngəzurda hər an döyüş tapşırıqları almağa hazır olan hərbi hissələr var. İkincisi, Azərbaycanda peşəkar şəkildə dağ döyüşləri aparmaq üçün komando birlikləri mövcuddur. Üçüncüsü, Azərbaycanın arsenalında ən müasir və dəqiq zərbələr endirən silahlar var. Dördüncüsü, Azərbaycan Ordusunda və kəşfiyyat orqanlarında ən elit qüvvələr mövcuddur ki, onlar istənilən an istənilən tapşırığın öhdəsindən asanlıqla gələ bilərlər. Beşincisi, Naxçıvan amilidir, sərhədin bu zonası da Ermənistana cəhənnəm yaşada bilər. Altıncısı, Daşkəsən-Gədəbəy, Tovuz-Qazax istiqamətidir.

Nəticə olaraq, Azərbaycan Ordusu istər Ermənistanın taktiki, istərsə də strateji dərinliklərini məhv edə bilər. Bu zaman isə Ermənistan forpostluqdan da bərbad günə düşəcək”.

**Çimnaz Şahlar**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;**




# Xocalı unutdurmayacaq!

## Hərbi müstəvidə müharibə bitsə də, informasiya sahəsində savaşımız davam etməkdədir

Xocalı soyqırımı Ermənistan hərbçilərinin dinc azərbaycanlı əhaliyə qarşı törətdikləri hərbi cinayətlərin ən dəhşətlisidir. Bu qətliamdan bir neçə gün əvvəl - 1992-ci ilin fevralın 17-də Ermənistan silahlı birləşmələri Azərbaycanın Xocavənd rayonunun Qaradağlı kəndində yerli azərbaycanlı əhalini kütləvi qırğına məruz qoyub. Öz cinayətlərini misli görünməmiş qəddarlıqla davam etdirərək, fevralın 25-dən 26-na keçən gecə keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərində soyqırımı törədiblər. Ağır hərbi texnikanın tətbiqi ilə davam edən qırğınlar nəticəsində Xocalı şəhəri tamamilə dağıdılaraq yerlə-yeksan edilib. 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 nəfər azərbaycanlı öz milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib. Ağlasığmaz qəddarlıqla 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Azğınlaşmış hərbiçilər insanların başlarının dərisini soyub, müxtəlif əzalarını kəsib, körpə uşaqların gözlərini çıxarıblar. Hamilə qadınların qarınlarını yarıb, insanları diri-diri torpağa basdırıb, yandırıblar. Meyitlərin bir qismini minalayıblar. Şaxtalı havada əl-ayağı yalın mülki əhaliyə belə aman verilməyib. Onlar təqib edilərək yollarda, meşələrdə Ermənistan hərbi qulluqçuları tərəfindən xüsusi amansızlıqla qətlə yetiriliblər. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bugünədək məlum deyil.

2020-ci ilin sentyabr ayında Ermənistanın növbəti hərbi təxribatlarına cavab olaraq başlayan Vətən müharibəsində Azərbaycan beynəlxalq hüquq normalarına uyğun olaraq əzəli torpaqlarını 30 illik işğaldan qurtardı. Dünya birliyi tərəfindən tanınan sərhədləri çərçivəsində öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Muharibənin bitməsinə və təcavüzə son qoyulmasına baxmayaraq, bugünədək azad edilmiş torpaqlarda hələ də günahsız insanlar şəhid olur. Çünki həm 30 illik işğal dönəmində, həm də Azərbaycan torpaqlarını tərk edərkən Ermənistan bura yüz minlərlə mina yerləşdirib. Erməni revanşistləri sərsəm bəyanatlarla xalqı region üçün son dərəcə zəruri olan sülhə deyil, yeni müharibəyə çağırırlar. Ermənistan siyasi və dini dairələri beynəlxalq qurumlara və dini təşkilatlara müraciət edərək işğaldan azad olunmuş ərazilərdə Azərbaycanın guya xristian abidələrini məhv etməsi barədə yalançı və böhtan xarakterli dezinformasiyalar yayırlar. Qarabağda Ermənistanın törətdiyi vandalizmdən diqqəti yayındırmaq məqsədilə əsl həqiqətləri pərdələməyə çalışırlar. O baxımdan Ermənistanın Azərbaycana qarşı təcavüzü və onun nəticələrini, işğal edilmiş ərazilərdə Ermənistan tərəfindən törədilmiş vandalizm haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya ictimaiyyətinə çatdırmaq lazımdır. Xüsusilə Xocalı qətliamının soyqırımı kimi tanınmasına nail olmaq şəhidlərin ruhu qarşısında insanlıq borcumuzdur. Ötən dövr ərzində Prezident İlham Əliyevin göstərişi ilə Xocalı şəhidlərinin xatirəsini əbədiləşdirmək üçün mühüm tədbirlər həyata keçirilib. Bakıda, respublikamızın bir sıra bölgələrində, həmçinin xaricdəki diasporlarımızın maddi və mənəvi dəstəyi ilə dünyanın əksər ölkələrinin paytaxtlarında Xocalı şəhidlərinin xatirəsinə abidələr ucaldılıb. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu böyük xidmətlər göstərib. Şübhəsiz, bu işdə diaspor təşkilatlarının üzərinə böyük vəzifə və fədakarlıq düşür. Hər il fevralın 26-da faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və dost xalqların nümayəndələri tərəfindən ürəkağrısı ilə qeyd olunur. Artıq ikinci ildir ki, anım gününü qalib ölkənin vətəndaşları kimi qeyd edirik. Ədalətin öz yerini tutması və Xocalı faciəsinin bütün dünyada soyqırımı kimi tanınması üçün müxtəlif xarici ölkələrdə tədbirlər keçirilir, anım gününə hazırlıq görülür.

Belçika və Niderlandda Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı anım tədbirləri keçiriləcək. Azərbaycan-Belçika Dostluq Cəmiyyətinin sədri Ayhan Dəmirçinin sözlərinə görə, anım tədbirləri Azərbaycan-Belçika Dostluq Cəmiyyəti, Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi və Gent Türk Ocağının təşkilatçılığı ilə reallaşacaq. Tədbirlər fevralın 24-də Belçikanın paytaxtı Brüsseldə, fevralın 25-də Belçikanın Gent şəhərində, fevralın 26-da isə Niderlandın Haaqa şəhərində baş tutacaq. Kanadada yaşayan həmvətənlilərimizin övladları da 25 fevralda məktəbə getməyəcəklər. Toronto Şəhər Təhsil Mərkəzinin Azərbaycan Dili müəllimi və sinif rəhbəri Yeganə Cəfərova deyib ki, Xocalı soyqırımı haqqında məktub hazırlayaraq uşağı məktəbə gedən həmvətənlilərimizə göndəriblər: ”Bu il 26 fevral həftənin altıncı gününə təsadüf etdiyi üçün valideynlər 25 fevralın matəm günü olduğunu bildirən məktubu uşağın getdiyi məktəb rəhbərliyinə təqdim edəcəklər. Bir gün öncə, yəni 25 fevralda azərbaycanlı uşaqlar məktəbə getməyəcək. Bu yolla Xocalı soyqırımını Kanada ictimaiyyətinə və həm də təhsil sistemində çalışan insanlara çatdırmaqdır əsas məqsədimiz. Məktuba Xocalı faciəsini əks etdirən video və linklər də əlavə etmişik”. Xatırladaq ki, artıq bir neçə ildir Kanadadakı soydaşlarımız bu formada kampaniya aparır. Bu il bütün Kanada əyalətlərində bu iş həyata keçiriləcək.

*“Xarici ölkələrdə təşkil etdiyimiz tədbirlərdə müasir vasitələrdən istifadə olunmalıdır. Çağırışlarımız dünya xalqlarının anlaya biləcəyi tərzdə olmalıdır"*

Ukraynanın paytaxtı Kiyev küçələrində Xocalı soyqırımından bəhs edən lövhələr quraşdırılıb. ”Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində Ukrayna Azərbaycanlıları Radasının təşəbbüsü, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyilə Kiyevin mərkəzi küçələrində Xocalı soyqırımından bəhs edən reklam lövhələri asılıb. Reklam lövhələrinin quraşdırılmasında məqsəd Ukrayna ictimaiyyətinə və xarici vətəndaşlara Xocalı soyqırımı haqqında məlumat verməkdir. Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Şimali Kipr Türk Cümhuriyyətində də beynəlxalq konfrans keçiriləcək. Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin məlumatına görə, fevralın 26-da keçiriləcək konfransda ŞKTC-nin prezidenti Ersin Tatar, dövlət rəsmiləri, millət vəkilləri, azərbaycanlı, türk tələbələr, eləcə də ictimaiyyət və media nümayəndələri iştirak edəcəklər. Girnə Amerikan Universitetinin Konqres Mərkəzində düzənlənəcək konfransa Azərbaycan nümayəndə heyəti də qatılacaq.

**”İslahatçı Gənclər” İctimai Birliyinin sədri, gənc fəal Fərid Şahbazlı ”Şərq”ə bildirib ki, artıq iki ildir Xocalı soyqırımının ildönümü qalib ölkənin, ərazi bütövlüyü təmin olunmuş bir dövlətin vətəndaşları kimi anılır. Birlik rəhbəri qeyd edib ki, hərbi müstəvidə müharibə bitsə də, informasiya sahəsində savaşımız davam etməkdədir:** ”Xocalı soyqırımı çərçivəsində həyata keçirdiyimiz tədbirlər də Azərbaycanın hərbi müstəvidə qazandığı uğurları diplomatik qələbələrlə möhkəmləndirməyə yönəlməlidir. Qarabağdakı böyük zəfərimizi gücləndirməliyik. Xarici ölkələrdəki tədbirlərin mahiyyəti daha çox bununla bağlı olmalıdır. İlk növbədə Xocalı soyqırımının törədilməsi, insanlıq əleyhinə dəhşət dünya ictimaiyyətinə açıqlanmalıdır. Həmçinin, işğaldan azad edilmiş ərazilərimizdəki erməni vandalizmi haqqında xarici ölkələrin auditoriyasına təfsilatlı məlumatlar verilməlidir. Hazırda Xocalıda Rusiya sülhməramlıları yerləşdirilib. Tədbirlərdə bunun müvəqqəti olduğunu, yaxın dövrdə bölgənin Azərbaycanın nəzarətinə keçəcəyini vurğulamaq lazımdır. Azərbaycan Qarabağ məsələsində və ermənilərin cinayətlərində qətiyyən güzəştə getməyəcək. Xarici ölkələrdə təşkil etdiyimiz tədbirlərdə müasir vasitələrdən istifadə olunmalıdır. Çağırışlarımız dünya xalqlarının anlaya biləcəyi tərzdə olmalıdır”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# İnflyasiyanın qarşısını almaq çətin olacaq

## Çünki rəqabətli mühitin yaradılması ilə bağlı ciddi addımlar görmürük



**Baş nazir Əli Əsədov ”Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında” sərəncam imzalayıb.**

Həmin göstərişdə deyilir ki, ərzaq məhsullarının qiymət artımının bazar iqtisadiyyatına uyğun qaydalarla - ticarət əlavələri hesabına sabitləşdirilməsi nəzərdə tutulur. Əhalinin həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsulları üzrə qiymət artımının ticarət əlavələri hesabına sabitləşdirilməsinə dair təkliflər on beş gün müddətində Nazirlər Kabinetinə təqdim olunmalıdır.

**REAL Partiyasının sədr müavini, iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında bildirib ki, sərəncamda on beş gün müddətində təkliflərin verilməsi ilə bağlı vaxt müəyyənləşdirilib:**

”Bu sərəncamların passiv tərəfləri də var. Gömrük və vergi rüsumları ilə də bağlı hansısa dəyişikliklərin olması gözlənilir. Amma hələ ki konkretlik yoxdur. Ötən gün imzalanan sənədlərə bənzər sərəncamlar olub. Amma bu heç də inflyasiyanın qarşısını kəsən sənədlərə çevrilməyib. İnflyasiya ilə mübarizənin əsas metodlarından biri rəqabətli mühitdir. Təəssüf ki, bu rəqabətli mühitlə əlaqəli ciddi addımların atılmasını görmürük. Hətta rəqabət məcəlləsinin özü belə hələ qəbul olunmayıb. On beş gündən sonra daha geniş şərh etmək olar”.

**Sücayət Mehti**

# "Qatilin dindirilmə prosesində mütləq psixoloqlar iştirak etməlidir"

## “Bu, maddi ehtiyac içində olan insanlarla hansı istiqamətdə iş aparılmasına kömək edə bilər”

**İnsan hansı ruh halında olmalıdır ki, bir qadın və iki uşağı qətlə yetirsin? Nizami rayonu, R.Rüstəmov küçəsində bir qadın və azyaşlının kirayədə qaldıqları mənzildə faciəli qətli məhz bu sualı yaradır. Qətli törətməkdə şübhəli bilinən şəxs kimdir? Məktəb direktoru işləmiş birisi.**



*"Ehtimal edirəm ki, bu şəxs hadisəni törətməzdən əvvəl psixatrop maddə qəbul edib. Çünki normal şərtlər altında insanın bu cür qəddarcasına qətl törətməsi mümkün deyil"*

Ali savadlı, təhsil sahəsində çalışmış adam. Doğrudur, insani keyfiyyətlər təhsilli, ya təhsilsiz olmaqla ölçülmür. Sadəcə, savadlı şəxsin, müəllimlik etmiş birisinin bu cür ağır cinayətə meyillənməsinə gətirib çıxaran səbəb mütləq araşdırılmalıdır. Yəqin ki, istintaq orqanları tərəfindən də araşdırılacaq. Amma qadına, üstəlik azyaşlı uşaqlara da acımayan insanın psixoloji vəziyyəti tədqiqat tələb edir.

**Psixoloq Əfsanə Rüstəmova ”Şərq”ə açıqlamasında hadisənin psixoloji tərəflərini izah etdi:**

- Cinayət törədən insanların psixoloji vəziyyəti fərqli olur. Ehtiyac anında insan istənilən hərəkəti edə bilər, gözlənilməz davranış sərgiləyə bilər. Qətli törətməkdə şübhəli bilinən şəxsin qohumları, onu tanıyanlar bildirir ki, bu adamın külli miqdarda borcu olub. O, əvvəllər də qohumlardan pul istəyib. İnsanlar çətinə düşəndə pulu, köməyi uzaqda deyil, ilk növbədə ailə daxilində, yaxın qohumlarda axtarırlar. İnsan belə düşünür ki, qohumlar ona kömək etməlidir. Kömək edilməyəndə isə aqressivləşirlər. İnsanda aqressiya yaranır ki, niyə mənə kömək etmirlər?! Mən düşünürəm ki, bu şəxs bəlkə bir neçə dəfə yaxın qohumlardan, baldızının ailəsindən yardım istəyib, əvvəlcə mülayim, xoşluqla, vəziyyətinin ağır olduğuna inandırmaq istəyərək, lakin ona kömək göstərilməyib. Bu da o insanın aqressivləşməsinə səbəb olub. Fikir verin, bildirilir ki, şəxs mənzilə zorla daxil olub. Onun mənzilə daxil olmasına müqavimət göstərilib. Buradan belə nəticə çıxarmaq olar ki, qətlə yetirilmiş qadın qohumunun pul istədiyini bilirmiş. Bəlkə əvvəlcə də ondan pul tələb edib, inkar cavabı alıb. Ona görə də bu dəfə mənzilə zorla daxil olmağa cəhd edib. Bilirsiniz, insan dara düşəndə istəyir ki, kimsə ona kömək əlini uzatsın. Və ən əsası da budur ki, belə halda insan başqalarının mütləq ona kömək etməli olduğunu düşünür. Halbuki insanların kömək göstərmək imkanları, sadəcə, belə bir arzuları, niyyətləri olmaya bilər. Yardıma ehtiyacı olan insanlarsa aqressivləşir və bəzən, təəssüf ki, bu cür dəhşətli cinayətlərə meyillənirlər. Cinayət törətməkdə şübhəli bilinən insanın hansı peşə sahibi olmasının da heç bir fərqi yoxdur. Ehtiyac içində olan insan qərarları peşəsinə uyğun vermir, ehtiyac amilinə görə verir. Nüfuzlu, yaşadığı ərazidə az-çox tanınan insanlar üçün ehtiyac içində olmaq iki qat ağırdır. Çünki onlar bu haqda danışmırlar, ətrafdakıların ona aşağı nəzərlərlə baxmasını istəmirlər. Ehtiyaclarını, problemlərini gizlədir, yığılıb qalmış aqressiya isə sonda faciələrə səbəb olur.

**Psixoloq qeyd etdi ki, cinayətdə şübhəli bilinən şəxsin yayılmış ilkin fotosuna baxıldıqda onun o qədər də yüksək fiziki gücə malik insan olmadığı görünür:**

- İlk baxışda o, normal fiziki gücə malik insandır. 1 dəfəyə 3 nəfəri, həm də bıçaq zərbələri ilə qətlə yetirə bilmək üçün böyük fiziki güc və ya psixatrop maddə təsiri gərəkdir. Ehtimal edirəm ki, bu şəxs hadisəni törətməzdən əvvəl psixatrop maddə qəbul edib. Çünki normal şərtlər altında insanın bu cür qəddarcasına qətl törətməsi mümkün deyil.

**Ə.Rüstəmova bu cür hadisələrin Azərbaycan mentalitetində xüsusi yeri və çəkisi olan qohumluq bağlarına zərbə vurduğunu da dedi:**

- Hesab edirəm ki, qətlə yetirilmiş qadının, uşaqların yaxın qohumları hadisə barədə təfərrüatlara varmamalıydılar. Çünki belə hadisələr çox mənfi president yaradır, qohumluq bağlarını zəiflədir. Həmçinin media da hadisənin təfərrüatlarını qabarıq şəkildə yayımlamamalıdır. Bu, həm insanların psixoloji durumuna mənfi təsir edir, həm də qətl hadisələrini bir növ adiləşdirir. Bu, təhlükəli tendensiyadır.

Psixoloq cinayət törətməkdə şübhəli bilinən şəxsin psixoloji durumunun mütləq araşdırılmalı olduğunu da bildirdi:

- Bildiyim qədər dindirilmə prosesində psixoloqlar iştirak edir, yəni etməlidir. Çünki bu şəxsin psixoloji durumu mütləq müəyyənləşməlidir. Bu, maddi ehtiyac içində olan insanlarla hansı istiqamətdə iş aparılmasına kömək edə bilər. Baş vermiş hadisə sübut edir ki, insanlar ehtiyac üzündən hansı hərəkətlərə əl ata bilər. Bunun qarşısı alınmalıdır. Bəzən insanlar 5-10 manata görə cinayət törədir, başqasının həyatına qəsd edir. İnsan həyatı bu qədər dəyərsiz olmamalıdır.

**Məlahət Rzayeva**



# Son günlər evlərə tələbat yüksəlir

## Köhnə tikililərin sökülməsi də əmlak və mənzil bazarına təsir edən amillərdəndir

**Bakıda ötən ay kirayə mənzillərin qiymətində bahalaşma qeydə alınıb. ”MBA Consulting Group” şirkətindən Trend-ə verilən məlumata görə, yanvar ayında kirayə mənzillərin orta qiymətində 7,93 faiz artım müşahidə olunub.**

Ucuz kirayə evlərinin qiyməti 414 manat, orta evlərin qiyməti 708 manat, bahalı evlərin qiyməti isə 1483 manat təşkil edib. Fərdi yaşayış və bağ evlərinin qiymətində isə yanvar ayında 4,22 faiz ucuzlaşma müşahidə olunub. Qiymət azalması qış mövsümü ilə əlaqədar bu evlərə tələbatın azalmasıdır.

Maraqlıdır ki, niyə məhz yanvar ayında kirayə mənzil bazarında qiymət artımı müşahidə edilir. Adətən payız mövsümündə, yeni tədris ili öncəsi kirayə mənzil bazarında qiymətlər qalxır. Yanvar ayında qiymət artımı ölkədəki ümumi qiymət artımı ilə bağlıdır, yoxsa başqa səbəblər var?

**”Əmlak” Ekspert Mərkəzinin direktoru Ramil Osmanlı ”Şərq”ə açıqlamasında qeyd etdi ki, kirayə mənzil bazarında müşahidə edilən qiymət artımının bir neçə səbəbi var:**

- Açığını deyim, əsas səbəb daşınmaz əmlak və mənzil bazarındakı qiymət artımıdır. Bu da ümumi qiymət artımı ilə bağlıdır. Qiymət artımı bütün istiqamətlərdə, o cümlədən daşınmaz əmlak və mənzil bazarına da təsirini göstərir. Başqa səbəb şəhərsalma prosesinin sürətlə irəliləməsidir. Paytaxtda 1-2 mərtəbəli, köhnə tikililərin söküntüsü gedir. Bu da tələbatı artırır, nəticədə təklif portfelində qiymətlər qalxır. Söküntüsü aparılan evlərdə yaşayanlar mənzil axtarışına çıxır, bəzisi müvəqqəti, bəzisi daimi. Üstəlik, o mənzillərdə, ünvanlarda çoxsaylı kirayənişinlər də qalır. Onlar da mənzil axtarmaq məcburiyyətində qalır. Bununla da tələbat yüksəlir, təklif tələbatı ödəmir deyə, qiymət artımı baş verir.

**Məlahət Rzayeva**

# Böyük sirr...

## O gecə 5 uşaq sanki duman olub göyə uçdu

(Əvvəli səh: 8-də)




***Bu hadisə ABŞ kriminalistika tarixinin ən kədərli, üzücü faktıdır***

**2 yaşlı Silviyanın beşiyi valideynlərin yataq otağında imiş. Valideynlər yanğını gördükdə tələsik otaqdan çıxarkən körpəni də qucaqlarına alıblar. 17 yaşlı Marion, 23 yaşlı John və 16 yaşlı iki oğlan uşağı da həyətə çıxa biliblər. Digər 5 uşaq isə yuxarı mərtəbədəki dəhlizin baş ucundakı otaqda qalıblar.**

Pilləkənlər alova büründüyündən aşağı düşə bilməyiblər. Ata yuxarı mərtəbəyə çöl tərəfdən qalxmaq istəyib, lakin hər zaman yerində olan nərdivanı tapa bilməyib. Ağlına fikir gəlib: kömür daşıdığı yük avtomobilini pəncərələrin önünə sürsün və onun üzərinə çıxaraq pəncərələrdən içəri keçsin. Müəmma bundadır ki, yük maşınlarını hərəkətə gətirə bilməyib. Sular da donubmuş. Alovları söndürmək mümkün olmayıb. Ata qolundan fışqıran qana əhəmiyyət vermədən uşaqları çağırmağa, qışqırmağa başlayıb. Səsi getdikcə titrəyib, gücsüzləşib. Yanğınsöndürmə xidmətinə zənglər nəticəsiz qalıb. Telefonlara cavab verilməyib. Yanğınsöndürənlər səhər saatlarında nəhayət gəlib çıxdıqda isə Sodderlərin evi külə dönmüşdü. Valideynlər 5 övladlarının yanğında can verdiyini ehtimal edirdi. Lakin ekspertizanın, pataloqların yanmış insan sümüklərinə rastlamaması burada daha dəhşətli bir cinayətin törədilə biləcəyi ehtimallarını gücləndirdi. Ekspertiza bildirib ki, insan sümükləri hətta 2 min dərəcə istidə yansa da, qalıqlar mütləq tapılmalıdır. Amma uşaqlardan heç bir əlamət qalmamışdı. Bir neçə ay öncə evə gələn tanımadıqları birisi elektrik naqillərinin vəziyyətini soruşmuşdu, evin arxasına keçərək elektrik naqillərinin birləşdiyi işıq qutusunu göstərərək "bir gün bu, yanğına səbəb ola bilər", deyib. Daha sonra bir başqa adamla həyat sığortası barədə mübahisələri düşüb, Corc onunla ağır danışıb, söhbət siyasi çalar alınca Mussolinini təhqir edib, həmin şəxs də "bunun əvəzini çox ağır ödəyəcəksən", deyib. Corc qəsəbədə yaşayan italyanlarla bu söhbətləri tez-tez edərmiş. Sodderlərin böyük oğlu da yanğından sonra xatırlayıb ki, bir gün yolda avtomobilini saxlamış birisi məktəbdən evə qayıdan bacı-qardaşlarına diqqətlə baxırmış. Yeni İl gecəsi Sodderlərin evinə yanlış bir telefon zəngi də edilib. Onların evdə olub-olmadığını yoxlayırlarmış. Telefon ustası isə naqillərin yanmış deyil, kəsilmiş olduğunu deyib. Alt mərtəbədəki işıqlar da sönməmişdi, yanılı vəziyyətdə idi. Yanğın ümumi elektrik cərəyanından başlamışdısa, digər otaqlarda niyə işıq sönməmişdi? Yaxınlıqda yaşayan bir qadının dedikləri isə ailənin həyatını qaraltdı. Qadın demişdi ki, yanğın zamanı uşaqları bir avtomobilin pəncərəsindən baxarkən görüb. Yaxınlıqda kafe işlədən bir qadın da yanğının ertəsi günü itkin sayılan uşaqları gördüyünü deyib. Belə məlumatlar da vardı ki, itkin düşmüş 5 uşağı bir oteldə iki italyan kişi və qadının müşayətiylə görüblər. Uşaqları fotolardan tanıyan qadın onlarla danışmaq istəsə də italyan kişi və qadın buna icazə verməyib. Ertəsi gün oteldən çıxıb gediblər. Sodderlər ailəsi bu hadisə və uşaqların itkin düşməsiylə bağlı yuxarı orqanlara müraciət etsələr də müsbət cavab almayıblar. Yanğından 20 il sonra - 1968-ci ildə isə ana Jenni şifrəli bir məktub alıb. Məktubda 20 yaşlarında bir oğlanın şəkli vardı. Valideynlər 1945-ci ildə 9 yaşında olan övladları Louisi tanıyıblar. Məktubun göndərilmə ünvanı isə yox idi. Ailə özəl dedektiv kirayələsə də yenə bir xəbər ala bilmədilər. Bundan sonra 5 uşağın fotosu olan lövhəyə Louisin 20 yaşlı şəklini asdılar. Jenni o gündən sonra ömrünün sonunadək qara libas geyindi. 1989-cu ildə 5 uşağın fotosu olan lövhə də nəhayət endirildi. Ailənin digər üzvləri, indi artıq nəvələr də bu faciəli hadisəni öz aralarında müzakirə edir və bir sonuc əldə etməyə çalışırlar. Uşaqlar həmin gecə ölmədi, qaçırıldılarsa, ailəyə kimsə zərər yetirməsin deyə, özləri haqqında heç bir məlumat vermirlər. Artıq böyümüş və harada olduqları, necə yaşadıqları sirr qalan 5 uşaq hələ də tüstü dumanın arasından görünür.

**Məlahət Rzayeva**

# Xanəndə çəkdiyini etiraf etdi

## Ehtiram Hüseynov dağınıq skleroz xəstəliyindən əziyyət çəkir



**Azərbaycanın Əməkdar artisti Ehtiram Hüseynov dağınıq skleroz xəstəliyindən əziyyət çəkir.**

Bu barədə muğam ifaçısı "Instagram" hesabında paylaşım edib.

O, Türkiyənin tanınmış müğənnisi Serdar Ortacın dediyi "Ms xəstəsi olmaq o deməkdir ki, bu gün yaxşı, sabah pis, növbəti gün isə yaxşı olub, insanları təəccübləndirirsən" sözlərini paylaşıb.

Sənətçi paylaşımına "İnşallah MS-in də çarəsi tapılar" sözlərini əlavə edib.

İzləyicilər də Ehtiram Hüseynovun paylaşımını bəyənərək ona şəfa diləyiblər.

*Qeyd edək ki, Dağınıq skleroz - sinir sisteminin iltihabi xəstəliyi olub, baş və onurğa beynində sinir hüceyrələrinin örtük qişasının zədələnməsi ilə müşahidə olunur.*

**Elan**

Məhərrəmova Anara Zakir qızının adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Yusifov Elşən Ramiz oğlunun adına verilmiş Müharibə Veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Milli Aviasiya Akademiyasının tələbəsi, Aerokosmik mühəndislik ixtisası, 2130A3 qrupundan Məmmədli Tuncay Əlibala oğluna aid tələbə bileti, şəxsiyyət vəsiqəsi və sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Bakıdan rayona işləməyə gedən peşə sahibləri var

## Ödənişli yollarda bəzi insanlara güzəştlər tətbiq olunmalıdır



**Azərbaycanda inşa edilən ilk ödənişli magistral avtomobil yolunun istifadəyə veriləcəyi tarix açıqlanıb. Bunu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov deyib.**

Onun sözlərinə görə, 152 kilometrlik Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi birinci texniki dərəcəli avtomobil yolunun tikintisi davam etdirilir: "2022-ci ildə Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi birinci texniki dərəcəli avtomobil yolunun tikintisi, həmçinin M2 magistral avtomobil yolunun Gəncə-Gürcüstan Respublikası ilə dövlət sərhədi hissəsinin 4 zolağa genişləndirilməsinin yekunlaşdırılması planlaşdırılır".

**Nəqliyyat üzrə ekspert İlqar Hüseynli "Şərq"ə açıqlamasında bildirib ki, ödənişli yolların ödənişsiz alternativi də olmalıdır:** "Azərbaycan müəyyən dövlətlərin beynəlxalq təcrübəsindən istifadə edərək ödənişli yol layihəsini gündəmə gətirib. Bildiyimiz kimi, Salyan ərazisindən Astaraya qədər seçilən magistral yol inşa edilib. Həmin yolun da ödənişli olması planlaşdırılıb. Məsələ xeyli müzakirə olunduqdan sonra ödəniş sistemləri o yollara tətbiq edilməyib. Çünki yollardan gündəlik istifadə edən insanlar bir rayondan digərinə gedir. Bələdiyyə ərazilərində yaşayıb, aqrar bizneslə məşğul olan şəxslərin rayonlara gündəlik yükdaşıma səfərləri olur. Beləliklə, Salyan-Astara yolunun ödənişli fəaliyyət göstərməsi dayandırılıb. Eyni proses Bakı-Quba-Rusiya federasiyası ərazisinə qədər çəkilən həmin o 152 kilometr yollara da nəzərdə tutulub. Dünya təcrübəsində də belə yollar var. Ödənişli yolların əcnəbi yükdaşıma fəaliyyəti ilə məşğul olan nəqliyyat vasitələrinə tətbiq edilməsi mümkündür".

Ekspert onu da əlavə edib ki, ödənişli yol açıldıqdan sonra həmin ərazidə yaşayan insanlara güzəştlər tətbiq olunmalıdır: "Hüquq-mühafizə orqanları, həkimlər, müəllimlər, mühəndislər kimi Bakıdan rayona işləməyə gedən peşə sahibləri var. Onlara güzəştli kart sistemi tətbiq edilməlidir. Daxil olarkən həmin şəxslərdən ödəniş tələb olunmamalıdır".

**Sücayət Mehti**

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

# "Nar" Çağrı Mərkəzinə zəng etmiş abunəçilərin 88%-i xidmət səviyyəsini yüksək qiymətləndirib

**Müştəri-yönümlü strategiyasına sadiq qalan "Nar" ötən il ərzində müxtəlif kanallar üzərindən abunəçilərinə üstün müştəri xidmətləri göstərib.**

2021-ci ildə 777 Çağrı Mərkəzinə 2,3 milyondan çox sorğu daxil olub və orta hesabla, 5 saniyə ərzində abunəçilərə cavab verilib. Abunəçi sorğularının ilk zəngdən həllini tapması üzrə "Nar" Çağrı Mərkəzi 94%-lik çox yüksək göstəriciyə nail olub. Çağrı Mərkəzinə zəng etmiş abunəçilərin 88%-i göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib.

Müştəri məmnuniyyətininin artırılması məqsədi ilə mobil operator bütün ölkə boyu eksklüziv diler və xidmət mərkəzlərini yeni konseptdə təqdim etməkdədir. Mobil operator artıq 26 mağazasını tamamilə yeni konseptə uyğunlaşdırmaqla, ziyarətçilərin müasir üslubda məlumat və xidmət almasını təmin edir. Şəxsin birbaşa iştirakının tələb olunduğu əməliyyatlar üçün yenilənmiş xidmət mərkəzlərində ötən il 150 mindən çox abunəçiyə xidmət göstərilib.

Müştəri xidmətlərini daha da əlverişli etmək üçün, Nar, ənənəvi müştəri xidməti vasitələrilə yanaşı, abunəçilərinə rəqəmsal platformalar üzərindən göstərilən müştəri xidmətlərini də təkmilləşdirir. Yeniləmələr sayəsində hesab üzərində əməliyyatları daha da asanlaşdıran "Nar+" tətbiqinə ziyarət sayı ötən illə müqayisədə 75% artıb. Qeyd edək ki, sosial mediada da aktiv olan mobil operator, rəsmi "Facebook", "İnstagram" və "Twitter" səhifələri üzərindən abunəçilərinin sorğularını da cavablandırır. Ötən ilin göstəricilərinə əsasən təxminən 160 min Nar abunəçisinin sorğusu məhz sosial media səhifələri üzərindən həll edilib.

# "Ərim məni cavan oğlanlara qısqanırdı, söz-söhbətimiz olurdu"

## Aşıq Zülfiyyə: "Deyirdi ki, sən ən azından o adam yaxınlaşanadək səhnədən çıxa bilərdin"



**Aşıq Zülfiyyə həyat yoldaşının vaxtilə çox qısqanc olduğunu açıqlayıb.**

O, "Qonağım ol" verilişində danışıb: "Təzə evlənən vaxtlar müəyyən qısqanclıqları olurdu. Cavan oğlanlar, cavan qızlar gül gətirirdilər. Cavan oğlanlar gül gətirəndə deyirdi ki, görürsən ki, gül gətirən cavan oğlandır, səhnədən çıx da. Deyirdim ki, olmaz axı, ona hörmətsizlik olar, ayıbdır", - deyə aşıq Zülfiyyə qeyd edib.

Sənətçinin sözlərinə görə, belə hallar çox olub: "Ya hansısa çəkilişdən, ya da hansısa konsert proqramından gələndə görürdüm ki, dinmir, danışmır, inciyib, küsüb. Deyirdi ki, sən ən azından o adam yaxınlaşanadək səhnədən çıxa bilərdin. O vaxt Dövlət Filarmoniyasında, Respublika Sarayında "Aşıq Pəri" məclislərində çıxış edirdik. Həmişə də gül gətirənlər olurdu. Ən çox onda söz-söhbətimiz olurdu. Sonra uşaq oldu, böyüdü. Özü də gördü ki, əldə olmayan şeylər var idi ki, onu da gərək qəbul edəsən".

# Lənkəran şəhərində yeni Bakcell mağazası açıldı




**Bakcell Lənkəran şəhərində yenilənmiş konsept mağazasını istifadəyə verib.**

Müştərilərin rahatlığını təmin etmək məqsədilə yeni dükan özündə müştəri xidməti, eyni zamanda nömrə və aksessuar satışı funksiyasını birləşdirərək "hər şey bir arada" innovativ konsepsiyası əsasında qurulub.

Lənkəran şəh., Həzi Aslanov xiyabanı 26 (Lənkəran Dövlət Universiteti ilə üzbəüz) ünvanında yerləşən yeni mağazanın qurulmasıda müştəri yönümlü yanaşmadan istifadə edilib.

"Əminəm ki, bu konsept mağazada Lənkəranda yaşayan bütün müştərilərimizə daha üstün keyfiyyətli xidmət göstərəcəyik, çünki bütün yeni açılan mərkəzlərimizdə olduğu kimi, burada da bütün xidmət prosesi "hər şeyin mərkəzində müştəri dayanır" yanaşması üzərində qurulub. Xidmətlərimizi Azərbaycanın bütün regionlarında yaşayan abunəçilərimiz üçün daha əlçatan etmək məqsədilə biz ölkənin müxtəlif şəhər və rayonlarında yeni konsept mağazaların qurulmasını davam etdirəcəyik", deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

*Qeyd edək ki, Bakcell şirkəti bu ilin sonunadək bir neçə yeni mağazanın açılışını planlaşdırıb.*

*2021-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu gün Bakcell şəbəkəsi 9 minə yaxın baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 92.6%-ni əhatə edir.*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 480



## Gecə vaxtı okeana düşdü

Skot suitidən cəsarət alaraq xilas olmağı bacarıb

**İndependent (Türkcə) yazır ki, ABŞ-ın Kaliforniya ştatında yaşayan Skot Tompson kiçik gəmi ilə okeana çıxıb. Lakin gecə vaxtı ehtiyatsızlıqdan gəmidən suya düşüb.**

Okean sularının ortasında qalan Skot "özümə, "nə gözəl, demək, burda mənim ölümüm gəlib. Bu gün, burda öləcəyəm", dedim. Amma birdən fərq etdim ki, gəminin motoru işləyir və sürətlə uzaqlaşır. O zaman anladım ki, nəsə problem var", deyir. Skot gəmiyə doğru üzməyə başlayıb. Peşəkar üzgücü olması əvvəlcə köməyinə gəlib. Lakin Skot üzdükcə gəminin də ondan uzaqlaşdığını gördükdə qorxmağa başlayıb: "Etiraf edim ki, qorxmağa başladım. Gəmiyə çata bilməyəcəyimi anlamışdım və bu, məni qorxudurdu. Panikaya düşdüm. "Ay, Allah, nə edəcəm?" deyə düşünərkən yaxınlıqda səs eşitdim. Ürəyim "ağzıma gəldi". Bu, yüz faiz köpək balığıdır. Bu da son!.. Elə bu anda kiçik fok balığı (suiti) başını sudan çıxardı. Sanki mənə "dostum, burda nə edirsən?" soruşurdu. Fok balığı suya baş vuraraq təkrar-təkrar suyun səthinə çıxıb və özünü bir neçə dəfə Skotun buduna toxundurub. Sanki mənə "dostum, tez ol, cəld tərpən və yola çıx" deyirdi. Skot məhz bu suitidən cəsarət alaraq üzməyə davam edib və uzaqda görünən neft platformasına 5 saatdan sonra çata bilib. Platformada fəhlələr işləyirmiş. Skot onlara səslənib və xilas olub. Gəmini də sonra tapıb, təmir etdirib.

**Məlahət**

## Əyləncə parkında texniki qəza baş verib

7 nəfərin olduğu dəmiryol atraksionu 6 saat 37 metr yüksəklikdə qalıb



**Belçikanın Flandriya şəhərindəki "Plopsaland" əyləncə parkında texniki qəza baş verib.**

İçərisində 7 nəfərin olduğu dəmiryol atraksionu 37 metr yüksəklikdə ikən qəfil dayanıb. Xilasetmə əməliyyatına yanğınsöndürmə briqadası cəlb edilib. Qatar yalnız 6 saatdan sonra aşağı endirilib. Qəzanın səbəbləri araşdırılır.



# Böyük sirr...

O gecə 5 uşaq sanki duman olub göyə uçdu

**ABŞ-ın Qərbi Virciniya ştatı Fayettevile qəsəbəsinin sakinləri təqvimlər 1945-ci ili göstərdiyində Yeni il bayramının səhərini faciəli olay barədə xəbərlə açıb. Məlum olub ki, Corc və Jenni Sodder ailəsinin evi yanıb. Ailənin 10 övladından 5-i isə yanğın zamanı evdə olub. O gün, bu gün 5 uşaqdan hələ də bir xəbər yoxdur. Uşaqların nə ölüsü var, nə dirisi. Bu cinayət hadisəsi ABŞ kriminalistika tarixinin ən kədərli, üzücü faktıdır.**

Kriminalistlər uzun illər tədqiqat aparsalar da, 5 azyaşlının həmin gecə evdə olub-olmadıqlarını, yanğında can verdiklərini, yoxsa qaçaraq qurtulduqlarını, yaxud da uşaqların başqa birisi tərəfindən oğurlandığını müəyyən edə bilməyib. Məsələ burasındadır ki, yanğın nəhayət ki, söndürüldükdən sonra hadisə yerində uşaqlardan heç bir nişanə tapılmayıb. Kriminalistlər, pataloqlar yanmış insan sümüklərini nə qədər axtarsa da, heç nə tapa bilməyib. Və istintaqın illərlə davam etməsinə baxmayaraq cinayət hadisəsinin üzərindən sirr pərdəsini qaldıra bilməyiblər. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, itkin 5 uşağın şəkli 40 il (!) ərzində qəsəbə yaxınlığındakı magistral yolda reklam lövhəsinə vurulmuş vəziyyətdə qalıb. 40 il ərzində bu yolda hərəkət edənlər tünd saçlı, qara gözlü, yaraşıqlı 5 uşağın fotosu ilə

**Bu hadisə ABŞ kriminalistika tarixinin ən kədərli, üzücü faktıdır**



qarşılaşırdı: Maurice - 14, Marta - 12, Louis - 9, Jennie - 8 və Betty - 5 yaş.

Qəsəbə sakinləri də həmin gecə nə baş verdiyini dəqiq bilmir. Bilinən budur ki, Sodderlərin 10 övladından 9-u Yeni İl gecəsi yatıb. Ailənin böyük oğlu həmin il hərbi xidmətdəymiş. Gecə 01:00 radələrində yanğın baş verib. Ata-ana və 4 uşaq




yanan evdən çıxıb, 5 uşaq isə sanki duman olub göyə uçdu. Onlardan nə bir iz, nə bir əlamət qalıb. Ata Corc övladlarını xilas etməyə çalışıb, evə daxil olmaq üçün pəncərəni qırıb, əlini kəsib. Alt mərtəbədəki otaqlar tüstü dumanı içindəymiş.

*(Davamı səh: 7-də)*

**Məlahət Rzayeva**

## Neslihan qayıdır...

Aktrisa "Gecenin ucunda" adlı serialda rol alacaq



**Türkiyəli aktrisa Neslihan Atagülün yeni layihəsi bəlli olub.**

**Aktrisa "Gecenin ucunda" adlı serialda rol alacaq. Ekran işi yeni mövsümdən etibarən "Star TV"də yayımlanacaq. Serialda hansı aktyorların rol alacağı hələlik açıqlanmayıb.**

***Qeyd edək ki, Neslihan sonuncu dəfə "Sefirin kızı" serialında rol alıb. O, səhhəti ilə bağlı problemlər ucbatından layihədən yarımçıq ayrılmışdı.***

## İmicində dəyişiklik edib

Alina Bozun bu halını bəyəndilər



**Türkiyəli aktrisa Alina Boz imicində dəyişiklik edib.**

**Axşam.az xəbər verir ki, aktrisa saçlarını qısaldıb və rəngində dəyişiklik edib.**

**Boz yeni görüntüsünü sosial şəbəkədə paylaşıb. İzləyicilər onun bu halını daha çox bəyəndiklərini qeyd ediblər.**

## "Birinci qəbul etmədim, naz elədim"

Aktrisa Emir Ersoyun ona evlilik təklifindən danışdı



**"Evlilik hakkında her şey" serialında baş rolu canlandıran aktrisa Gökçe Bahadır müsahibəsi zamanı şəxsi həyatından bəhs edib.**

**Axşam.az xəbər verir ki, fevralın 25-də musiqiçi sevgilisi Emir Ersoyla nikah masasına əyləşməyə hazırlaşan aktrisa evlilik təklifi aldığı andan danışıb:**

**"Küçədə yeriyəndə birdən dayandı, "mənimlə evlənərsən" dedi. Birinci qəbul etmədim, naz elədim. Amma təklif istədiyim kimi oldu. Buna görə xoşbəxtəm".**

***Qeyd edək ki, aktrisa Ali Sunaldan 2012-ci ildə boşanıb.***



# 70 milyon heyranı var

Avtomobil həvəskarı olan sarışın gözəl gündəm olub

**Dünyanın ən sürətli avtomobillərindən bəzilərinin sükanı arxasına keçmək, məşhurlarla görüşmək, 70 milyon pərəstişkara sahib olmaq... "YouTube" ulduzu "Supercar Blondie" adı ilə tanınan Alex hər şeyə sahib kimi görünür.**

Yüksək oktanlı olan, hər şeyə inanılmaz həvəs nümayiş etdirən Alex Hirchi, dünyanın bir nömrəli keyfiyyətli avtomobil bazarı media hesabını yaratmağı bacarıb. Sosial mediada hər paylaşım üçün çoxlu miqdarda pul qazanan, "Top Gear"da iştirak edən və F1 sürücüləri ilə çiyin-çiyinə olan gənc qadın avtomobil dünyasında önəmli güc mərkəzi hesab olunur. Dünyanın ən böyük ulduzlarından bəziləri ona avtomobillə bağlı məsləhətlər almaq üçün mesaj göndərir. Aleks etiraf edib ki, bəzən özü də uğuruna təəccüblənir. O, bu barədə "The Sun" qəzetinə danışıb:

"Mən həmişə avtomobil sürməyi sevmişəm. Dubayda yaşayarkən olduqca inanılmaz avtomobillərin yanında olmuşam, ona görə də bu, mənim marağımı çəkib. Burada gördüklərimi dünya ilə bölüşmək istədim. Bu, hobbi olaraq başladı, amma mənim qədər avtomobili sevənlərin çox olduğunu görəndə bu işə daha ciddi yanaşmağa başladım".

Aleks onu da etiraf edib ki, o, motor mərkəzli sosial media hesabını yaratmazdan əvvəl kişilərin üstünlük təşkil etdiyi sənaye tərəfindən zorakılığa məruz qalıb və kənarlaşdırılıb.

Özünü sübut etməyə çalışan 36 yaşlı sürücü sürətli təlimat videolarında avtomobilləri əyləncəli şəkildə nümayiş etdirərək avtomobil həvəskarlarını heyran etməyi bacarıb. Lakin bununla da bitmir. O, dünyanın ən bahalı avtomobillərinin mürəkkəb yüksək texnologiyalı xüsusiyyətlərini sadələşdirərək "Ferrari" ilə "Porsche"ni ayırd edə bilməyənlərin də diqqətini çəkib. Şən şəxsiyyəti, həvəsi və cazi-



bədar görünüşü ilə dəstəklənən Aleksin sosial media məzmunu avtomobil sənayesini hər kəs üçün əlçatan edib.

Radio aparıcısı işini tərk edəndən və yalnız hobbisinə fokuslanandan sonra dörd il ərzində Aleks 70 milyondan çox insanı öz ətrafında toplayıb və 25 işçidən ibarət onlayn icmaya çevrilib.

**Aleks bildirib ki, onu ən çox valeh edən şey hələ də bu inanılmaz maşınları idarə etməkdi:** "Düzünü desəm, ən yaxşı vaxtlar çəkiliş etmədiyim vaxtlardır. Kamerasız insanlarla görüşə bildiyim zaman gəzintidən həzz ala bilirəm".

**O bildirib ki, tez-tez bu hobbisinə görə nifrət nitqlərinə məruz qalıb:**

"Əvvəlcə bu sahədə daha çox mühakimə olunduğumu hiss edirdim. Avtomobil yarışlarında demək olar ki, həmişə otaqda yeganə qadın olurdum. Mən otağa girəndə çoxlu pıçıltı və təhqir olardı. Bu, əyləncəli deyildi. Mən qeyri-adi terminlərlə maşınlardan danışırdım ki, hamımız bu dünyanı başa düşək və onun bir parçası ola bilək. Avtomobil dünyası həmişə dəhşətli olub. Mən bunu daha çox insana açmaq istəyirəm, amma buna başlamaq mənim üçün çətin idi" .

**Çimnaz Şahlar**

## Kitabsız bir gün belə keçirmir

102 yaşlı avtomobil həvəskarı uzunömürlülüyün sirrini açıb



**2022-ci ilin martında 103 yaşı olacaq ABŞ sakini uzunömürlülüyün sirrini açıb.**

Oxu.az əbər verir ki, Men ştatının kiçik Madavosk şəhərindən olan 102 yaşlı Armand Martin qoca yaşına baxmayaraq, öz evində tək yaşayır və avtomobil həvəskarı olaraq qalır.

O, oğlunun müşayiəti ilə ərzaq və dərman üçün alış-verişə çıxır.

Beş il qoca qəzaya düşüb və şəxsi nəqliyyat vasitəsindən imtina etmək qərarına gəlib. Lakin sürücülük üçün çox darıxdığından 101 yaşında yeni avtomobilinə sahib olub.

1919-cu il təvəllüdlü kişi uşaqlıqdan oxumağı çox sevdiyi üçün bu qədər yaşadığını düşünür. O, kitabsız bir gün belə keçirmir. Ən çox sevdiyi janrlar isə vestern və elmi fantastikadır.

*Amerikalı uzunömürlülüyünü oxumaqla yanaşı, daimi məşğulluq, düzgün qidalanma və aktiv həyat tərzi ilə izah edir.*

## 15 milyon dollar alacaq

Britni Spirsin həyatı kitab halına salınacaq



**Müğənni Britni Spirs valideynlərinin himayəsində keçirdiyi illərdən, atası Ceymi Spirsə qarşı apardığı qəyyumluq mübarizəsindən ibarət xatirələrini kitab halına salacaq.**

Axşam.az xəbər verir ki, ifaçı bunun müqabilində 15 milyon dollar alacaq. Britni artıq "Simon & Schuster" nəşri ilə müqavilə imzalayıb. Razılaşma ilə bağlı tərəflər ətraflı açıqlama verməyib.

"Page Six"in məlumatına görə, bu razılaşma ABŞ-ın 44-cü prezidenti Barak Obama və həyat yoldaşı Mişellə bağlanan 65 milyon dollarlıq müqavilədən sonra ən böyük sövdələşmədir.

*Qeyd edək ki, Britni onun həyatından bəhs edən "Things I should have said" adlı kitabı yazan bacısı Lini bu yolla pul qazanmaqda və ona 11 ildir davam edən qəyyumluq mübarizəsində dəstək olmamaqda ittiham edib.*